**POL STRATERN**



# 90 DƏQİQƏDƏ
# KONFUTSİ

BAKI FƏLSƏFƏ AKADEMİYASI

Pol Stratern

# 90 Dəqiqədə Konfutsi

Pol Stratern

**90 Dəqiqədə Konfutsi**

Tərcüməçi: **Araz Əliyev**

Redaktor: **Qoşqar Abbas**

Korrektor: **Aqşin Aşırov**

Dizayn və tərtibat: **QR**

53 səhifə

© Paul Strathern, 1999

© Bakı Fəlsəfə Akademiyası, 2021

www.bakuphilosophy.com

bakuphilosophy@gmail.com

## Pol Stratern

Şotland-İrland əsilli yazıçı Pol Stratern 1940-cı ildə Londonda doğulub. Dublin Trinity kollecində fəlsəfə təhsili alıb. 1972-ci ildə "*Həbəşistanda bir fəsil*" adlı əsəri ilə Somerset Moem mükafatına laiq görülüb. Beş romanı ilə yanaşı səfər təəssüratları, elm, fəlsəfə, tarix, ədəbiyyat, tibb və iqtisadiyyat mövzulu çoxsaylı kitabların da müəllifidir. Kimya tarixi ilə bağlı *"Mendeleyevin arzusu"*(2000) əsərinə görə Aventis mükafatına laiq görülüb. İqtisadiyyat tarixi ilə bağlı araşdırmalarının yer aldığı *"Dr. Strenclovun oyunu"*(2001) ilin *"Google business"* kitabı seçilib. *"90 dəqiqədə filosoflar", "Böyük düşüncə: Dünyanı dəyişdirən elm adamları"* kimi qısa kitab seriyalarının müəllifidir. Yetəri qədər ağır mövzular haqqında şotland açıqlığı və irland yumoru ilə olduqca aydın şəkildə yazan müəllif Kinqston Universitetində riyaziyyat, elm və fəlsəfə üzrə mühazirələr oxumuş, əsərləri iyirmidən çox dilə tərcümə edilmişdir.

Məşhur əsərləri arasında *"Mediçi: Renessansın xaç atası"*(2003), *"Napoleon Misirdə"*(2007), *"Rəssam, filosof və döyüşçü: Leonardo, Makiavelli və Borcia - qaçınılmaz gizli müqavilə"*(2009) *"Venesiya ruhu: Marko Polodan Kazanovaya"*(2012), *"Periodik cədvəl"*(2015) yer alır. Ən sonuncu kitabları arasında *"Borcialar"*(2019), *"Yüksəlmə və çöküş: On imperiyada dünya tarixi"*(2019) kimi maraq doğuran əsərlər var. Pol Stratern hazırda Londonda yaşayır.

## Akademiyadan

*"90 dəqiqədə Konfutsi"* Bakı Fəlsəfə Akademiyasının sayca beşinci kitabıdır. *"Hər kəs üçün fəlsəfə"* ideyasına sadiq qalaraq daha çox oxucunu fəlsəfə ilə tanış etmək, dilimizdəki mənbə məhdudiyyətini aradan qaldırmaq məqsədi ilə kitabı oxucularımıza təmənnasız olaraq elektron formada təqdim edirik.

Kitab Bakı Dövlət Universitetinin fəlsəfə tarixi ixtisası üzrə doktorantı Araz Əliyev tərəfindən heç bir qarşılıq güdülmədən, təmənnasız olaraq tərcümə edilmişdir. Kitabın tərcümə prosesi rus və orijinal ingilis dilli nəşrləri əsasında həyata keçirilmiş və korrektə edilmişdir. Tərcümə əsnasında kitabın bədii xüsusiyyətləri, o cümlədən müəllifin yazı üslubu və dili qorunmuş, tərəfimizdən bəzi mübahisəli ifadələrin izahı ayrıca mötərizə içərisində verilmişdir.

Bakı Fəlsəfə Akademiyası olaraq türk dilindən Azərbaycan dilinə tərcümə edilən kitabların böyük əksəriyyətini, həmçinin digər dillərdən qarşılıqsız tərcümə edilən kitabları təmənnasız və ya elektron formada yayımlayacağıq.

Hörmətlə,
Bakı Fəlsəfə Akademiyası
Bakı, 2021

# Mündəricat

Ön söz | 8

Konfutsinin həyatı və əsərləri | 10

Son söz: Çin fəlsəfəsi | 37

Konfutsinin söylədikləri | 43

Əhəmiyyətli fəlsəfi hadisələrin xronologiyası | 49

Konfutsinin həyatının xranologiyası| 52

Tövsiyə olunun ədəbiyyat | 53

# Ön söz

Qərbin Çin fəlsəfəsini həqiqi mənada heç vaxt anlaya bilmədiyi deyilir. Bir çox şərqli mütəfəkkir, daha da irəli gedərək, Qərb ağlının kiçik xırdalıqlar zənginliyini heç vaxt qavraya bilməyəcəyini, çünki qərblinin yaradıcı gücünün yetərsiz olduğunu irəli sürürlər.

Demək olar ki, bütün Qərb filosofları da öz anlayışlarının başqa insanlar, başqa mədəniyyətlər tərəfindən mənimsənilməsi mövzusunda oxşar baxışları təmsil edirlər. Anlayış göstərməmək yolundakı bu qarşılıqlı müqavimət bizi ödəməli olacağımız bədəl mövzusunda narahat etməsin.

Necə ki, çinlilər Avropalılardan fərqlidir, eləcə də Çin fəlsəfəsi, Avropa fəlsəfəsindən fərqlidir. Hamımız **condition humanie** (insanlıq vəziyyəti) içərisindəyik. Elə bütün fəlsəfi nəzəriyyələr də bunu iddia etməkdədir. Bizə görə, Çin fəlsəfəsinin, çinlilərə görə də bizim fəlsəfənin zəif nöqtələri var. Amma hər ikisi də eyni xəstəlik üçün, ya da eyni xəstəliyə qarşı yazılmış reseptlərdən başqa bir şey deyil: Bu xəstəlik isə Həyatdır.

Konfutsi həyata dair hər şeyi bilirdi, ancaq biz Konfutsinin həyatı barəsində çox az şey bilirik. Məhz bu səbəblə də onu bir insan olaraq dəyərləndirməyə çalışdığımızda bir qədər carəsiz qalırıq. O, bizə necə davranmalı olduğumuzu öyrətmişdi, ancaq biz onun həqiqi mənada nələr etdiyini müəyyən etmiş deyilik.

Konfutsi tarixdəki ən təsirli şəxsiyyət kimliyinin, bu adın ən üstün namizədlərindən biridir, bu səbəblə də fəlsəfəsinin bulanıq və hətta cansıxıcı olması bizim üçün çox böyük şansdır. Xoş niyyətlə deyilmiş iri mənasız sözlər, lətifəli aforizmlər və görünüşə görə hikmətli aforizmlərlə zəngin olan toplusu dövlət xidmətindəki bir adamın ideal fəlsəfəsini ortaya qoymaqdadır. Onsuz Konfutsinin də ağılından keçən məhz buna çatmaqdır.

Konfutsinin məqsədi digər müdriklərin əksinə tələbələrini boş-boş gəzən dərvişlərə, küçələri və meydanları öz müdriklikləri ilə güvənsiz yerlərə çevirərək insanları alış-verişdə narahat edən və heç bir işə yaramayan şəxslərə çevirmək deyildi. Onun məqsədi öz tələbələrini çox yaxşı bürokrata çevirmək idi və bu məqsədə də yuxularında belə görə bilməyəcəyi miqyasda çatmışdı.

Təlimləri iki min ildən daha uzun müddət ərzində xəttatlar, məktəb idarəçiləri, nazir və mülki işçilərin davranış qaydalarını müəyyən etmiş və onları mənəvi baxımdan bəsləmişdir. Bu qarğış Çində doğulmuşdu: “Keşməkeşli vaxtlarda yaşayasan”. Konfutsinin Çinində can sıxıntısı xeyir-dua mənasına gəlirdi. Digər seçimləri göz önünə gətirəndə bu o qədər təəccübləndirici bir şey deyil. Sürüdən ayrılaraq qəribə hərəkət etməyin nəticəsində xədim edilmiş olmaq əslinə qalsa böyük şansdır.

1949-cu il kommunist inqilabından əvvəl Konfutsiçilik və Çin, həyat tərzi baxımından o qədər qarmaqarışıq idi ki, demək olar, hər ikisi sinonimə çevrilmişdi.

Maonun hakimiyyəti dövründə Konfutsiçiliyə münasibət sərt idi. Konfutsi “torpaq sahibləri və kapitalistlər” sinfinin nümayəndəsi elan edilmişdi, halbuki əslində nə bu, nə də digərinə aid deyildi. Filosof ömrünün çox hissəsində işsiz olmuş, davamlı olaraq

maliyyə çatışmazlığından əziyyət çəkmişdi. Necə deyərlər, bir həsir bir Məmmədnəsir idi. 1960-cı il Mədəni İnqilabı zamanı Qırmızı Mühafizəçilər Konfutsiçiliyin son qalıqlarını soydaşlarının düşüncələrindən silməyə çalışırdılar. Eyni zamanda, sədr Mao, bəzən Konfutsi tərəfindən verilən şərhlərlə yoldaşlarını ruhlandırırdı. Bütün bunlar Çin zehniyyətinin dərinliklərində kök salmış və mövcudluğunu davam etdirən, yalnız zahiri olaraq marksizm təbəqəsi ilə örtülmüş Konfutsiçiliyin təsirini vurğulayırdı.

Bütün bunların marksizm adı altında öz varlıqlarını nə dərəcədə davam etdirə bildiklərini demək çətindir, lakin Konfutsiçiliyin Tayvandan dünyanın böyük şəhərlərində Çinin xüsusiyyətlərini qorumağı bacarmış məhəllələrinə qədər olduqca canlı qaldığı dəqiqdir.

Çində Konfutsi ingilislər üçün Şekspirin və ya Almanlar üçün Götenin yerini tutur. Əslində isə Konfutsinin özü təəccüblü dərəcədə bacarıqsız biri idi.  Ən azından o, özünü bu cür görürdü (Digər tərəfədən biz kimik ki, bu qədər müdrik birinin fikirlərinə qarşı çıxırıq. O, özü həyatının tamamilə uğursuz olduğuna inanmış və xəyal qırıqlıqları içərisində ölmüşdü) Konfutsi (Confucius) – Kung-fu-Dse-nin latin dilinə uyğunlaşdırılmış versiyasıdır və “Ustad Kun” mənasına gəlir.

## Konfutsinin həyatı və əsərləri

Konfutsi eradan əvvəl VI əsrdə yaşamışdı. Bu və sonrakı bir neçə əsr heç şübhəsiz ki, insanlığın inkişafında, yəni mağara adamının səhvliklə öz evini yandırdığı andan etibarən yaşadığı ən vacib dövr idi.

Konfutsinin doğulduğu və fəaliyyət göstərdiyi dövrdə insanlar Daosizmin, Buddanın, Zərdüştün və Yunan fəlsəfəsinin doğuluşuna şahid oldu. İnsan zehni baxımından bu qədər əhəmiyyətə malik bu qədər irəliləyişin xüsusilə onun dövrünə təsadüf etməsi, hələ fərqli inkişaf mərhələlərində olub, bir-biri ilə hər hansı formada əlaqəsi olmayan sivilizasiyalarda necə olub da eyni zamanda meydana gəlməsi isə özülüyündə böyük bir sualdır (Bəzi həll variantları içərisində yadplanetlilərin ziyarəti, Günəşdəki qeyri-müəyyən aktivliklər və beyin xəstəlikləri (kütləvi psixoz) kimi seçimlərin olması zehni inkişafımızın o vaxtdan etibarən çox yol qət etmədiyi istiqamətində şübhələrimizə səbəbiyyət verməkdədir).

Konfutsi eradan əvvəl 551-ci ildə şimal-şərqi Çində, bu günki sahil qəsəbəsi olan Şantunqun cənub-qərbində yerləşən Lu bəyliyində doğulmuşdu. Çox köklü və kasıb ailədən gəlirdi. Konfutsinin Şan-İn xanədanlığı krallarının soyundan gəldiyi iddia edilirdi (Bu sülalə Çinin ən qədim sülaləsidir: eradan əvvəl XVIII əsrdən XII əsrə qədər 600 il hökm sürmüşdü. Yenə rəvayət edilir ki, mavi saxsı qablar hazırlayan və onları gözəl çiçəklərlə bəzəyən və ödəmə

vasitəsi kimi çəhrayı dəniz qabıqlarını tarix səhnəsinə çıxaran da onlar olmuşdu. Bir digər rəvayət isə Çin yazısını kəşf edən ilk sivilizasiyanın onlar olduğunu qeyd edir. Tısbağaların canaqlarına bu yazıları qazımaqla özlərindən sonra gələcək nəsillərə bir mesaj vermək istəyiblər. Təbii ki, bu möhtəşəm axmaqlıq bir sıra ciddi tarixçilərin gözündə yetərli deyildi və çox qısa bir müddət sonra arxeoloji tapıntılar arasında eradan iki min əvvəl yenə oxşar varlıq və gündəlik mədəniyyət xüsusiyyətləri göstərən bir imperatorluğun varlığı tezisi irəli sürüldü. Amma təəssüf ki, bu vaxta qədər bir vaxtların Konfutsi sülaləsinin üzvlərinin tısbağa çanağı kitabları ilə ötürdüyü heç bir mesaja rast gəlinməyib).

Konfutsi doğulduğu vaxtda atasının 70 yaşında və hərbi komandan olduğunu bilirik. Oğlu üçüncü baharında ikən atası ölür və Konfutsi anasının himayəsində böyüyür (Demək olar ki, on iki böyük din və fəlsəfə öndərinin hamısının sadəcə anası və ya atası tərəfindən böyüdülmüş olması olduqca qəribədir).

Daha sonra Konfutsi xatırlayırdı: *"On beş yaşımda yalnız oxumaqla maraqlanırdım".* Bilik dalınca qaçmaq Konfutsinin bütün həyatının əsas mənası olmuşdu. Daha sonra isə həyatı öz ifadəsinə görə bir-birinə bənzəməyən mərhələlərə bölünmüşdü: *"...otuz yaşımda həyatıma başladım; qırx yaşımda təkəbbür göstərdim; əllidə şeylərin ümumi qaydasında yerimi başa düşdüm; altmış yaşında mübahisə etməməyi öyrəndim; İndi isə yetmiş yaşım var və həyatın təməllərini məhv etmədən sərbəst şəkildə addımlayıram".* Bunun nə olduğunu söyləmək çətindir: mənəvi bir tərcümeyi-hal və ya *"bir insanın yaşını"* ifadə edən ənənəvi Çin müdrikliyinin bir variantı. Hər halda, bu hissədə şəxsi məlumat və ya müasir bir oxucunun *"həyat hekayəsi"* adlandıracağı çox şey yoxdur.

Bu cür insanların ətraflarında formalaşan mənasız bir sıra hekayələri (məsələn, ağaclar tərəfindən böyüdülən quş, əmisinin sevimli köpəyinin ölümdən döndürülməsi, kometaların görünüşü və s.) bir kənara atacaq olsaq, bu dövrlər Çinin öz mədəniyyətini borclu olduğu altı əsrlik tarixə malik Çjou xanədanlığının tənəzzül dövrü başlamışdı. Artıq vassal dövlətlərin tabe olduqları hökmdarlarını dəyişdirdikləri, sədaqət andlarını pozduqları və adi səbəblərlə müharibələr başladıb itaətsizlik göstərdikləri dövrü idi. Hərbi rəhbərlər hər zaman necə yaşamışdılarsa, o cür yaşayırdılar (kütləvi qırğınlar, aclıq və eyş-işrət). Geriyə qalan sadə insanlar isə sakit şəkildə çoxalırdılar ki, öz sahiblərini xırda işlərlə məşğul etməsinlər (cinayət, aclıqla ölümə məhkum etmək və təcavüz).

İnsani səfalət o dövrdə sadəcə Asiyada düşünülə biləcək böyüklüyə yüksəlmişdi. Yalnız kommunist inqilabından sonra onunla müqayisə oluna biləcək bir vəziyyət meydana gəlmişdi. Lakin bunlara baxamayaraq başqa mənfiliklər də var idi. Konfutsinin gəncliyində şahid olduğu şiddət səhnələri onu dərindən təsirləndirmişdi. Məhz bu səbəblə də düşüncələri sərt və praqmatik olmuş, bu mövqeyini çox az dəyişdirmişdi. Konfutsi qısa müddət ərzində fərqinə varmışdı ki, bu cür dözülməz ağrı-acı ancaq mövcud ictimai sistemi, düşüncə formasını və sosial zehniyyət dəyişdirildiyi təqdirdə sona çatacaq.

Bir cəmiyyət onu təşkil edən fərdlərin hamısının rifahı üçün çalışmalıdır və idarəçilər üçün bir növ qazanc mənbəyi olmamalıdır. Konfutsi bu günə qədər hər kəsin göz ardı etdiyi həqiqəti formula edən yeganə şəxs idi. Bu təməl prinsip barəsində Yunanlıların müzakirə etmələri üçün iki əsrdən çox vaxt keçməsinə ehtiyac olmuşdu. Onlar bu məsələ üzərində müzakirəyə başladıqları üçün, olduqca tez bir şəkildə mücərrəd ədalət anlayışı formalaşdırıb ortaya çıxardılar.

Konfutsi gənclik illərində nəzəri mübahisələr üçün əlverişli zəmin tapa bilməmişdi. Bu səbəblə də düşüncələri daha çox praktikaya meylli olaraq qalmışdı. Gəldiyi nəticə cəmiyyətin dəyişməsi deyil, əksinə cəmiyyətin rolu ilə əlaqədar anlayışların, ictimai zehniyyətin dəyişməsinə ehtiyac olduğu idi. Bu bir atanın öz övladına göstərməli olduğu atalıq vəzifələri qədər qəti idi. Nəticə etibarilə Konfutsinin məsləhət bildiyi düşüncə inqilabı daxili anlayış və münasibətlə əlaqədar idi: Hər kəs bu istiqamətdə cəhd göstərməli, vəzifəsini ən ali əxlaq anlayışı çərçivəsində yerinə yetirməli idi.

Konfutsinin bu və bununla əlaqədar bir çox mövzudakı baxışları elə formula edilmişdi ki, tərəfdarlarına bu fikirləri şərh etmək üçün geniş imkanlar vermişdi. Məsələn: (Lun Yuy 14.38) *"Əgər fikirlər yayılırsa, bunun səbəbi göylərin məhz bu cür istəməsidir", "Hökmdar olmaq çətindir, amma tabe olmaq asan deyil", "Özünəməxsus insanlar hər şeyi başqalarından fərqli şəkildə edirlər", "Əmr vermək və özün heç nə etməmək cəsarət deyil".* Fikirlərin bir-biri ilə olan əlaqəsizliyi Konfutsi təliminin tipik məntiqi əskikliyi kimi görünsə də, əslində bu təlimin güclü tərəflərini müəyyən edirdi. Bu təlim heç bir zaman tam şəkildə təkzib oluna bilmədiyi kimi, yetəri qədər cəhd göstərilsə onunla demək olar ki, hər şeyi isbatlamaq mümkün olardı. Konfutsiçilik bu gücünü daha sonrakı dövrlərdə İncillə və digər bütün sarsılmaz inancların müqəddəs kitabları ilə paylaşmalı olmuşdu.

Konfutsi 18 yaşında evlənmişdi və "böyük balıq" mənasına gələn "Li" adlı bir oğlu olmuşdu. Li atasının ümidlərini doğrultmamışdı, çünki onun istədiyi kimi adlı sanlı biri olmamış, böyük balığa çevrilməmişdi. Konfutsi yoxsul idi və bu səbəblə də eyni anda müxtəlif işlərdə çalışmalı olmuşdu. Bir çox fərqli işlə bərabər ictimai buğda anbarında gözətçilik, öküz və qoyunların qurban mərasimləri

üçün bağlandıqları dirəklərə qarovulçuluq kimi işlərdə çalışmışdı. Boş vaxtlarında tarix, musiqi və adət-ənənələri öyrənmiş, qısa zamanda Lu-dakı ən müdrik şəxs ünvanını qazanmışdı. Konfutsi olduqca əzmli bir insan idi. Hakimiyyət pillələrində yüksək bir yerə gələrək öz fikirlərini tətbiq etmək istəyirdi. Acgöz hakimiyyət sahiblərinin onların bütün keyfini qaçıracaq bu cür şəxsi yanlarına almasını düşünmək çox təəccüblü olardı. Elə bu səbəblə də bütün iş görüşmələri zamanı Konfutsi özünü təqdim etməkdən o tərəfə keçə bilməmişdi. (O, nəhəng bilik bazasını dünya ilə paylaşmaq istəyən biri idi. Bu da çox təbii ki, iş axtarışlarını davam etdirən bir insanın mövqeyindən çox da ağıllı bir taktika olmazdı).

Hələ o dövrlərdə də indilərdə olduğu kimi öz ixtisasları ilə bağlı iş tapa bilməyən şəxslər müəllim olurdular. Lu bəyliyi gələcək saraylara mərasimlər və saray davranışı qaydaları ilə bağlı bilikləri ötürən bir çox köklü məktəb ilə də məşhur idi.(Bu məktəblərdə adətən çox vaxt sarayda vəzifə tutmuş, buradakı qarışıq mərasim qaydalarını dərindən bilən, ancaq hər necəsə saray daxilində incə xətlərə toxunduqları üçün vəzifəsini itirmiş şəxslər dərs deyirdi. Belə ki, bəzən aylıq maaşlarından daha çox dəyər gətirən bir neçə şəxsi əşyalarını itirmələri ilə nəticələnirdi). Məhz bu cür səbəblərdən ötrü Konfutsi fərqli bir məktəb qurmağa qərar vermişdi. O, dövlət məmurlarına idarəetməni öyrətmək istəyirdi.

Çox şükür ki, Konfutsi cəlbedici və ilhamverici bir insan idi. Heç kim onun hansı keyfiyyətlərə malik olmasını sorğulamadı. Çox qısa müddət ərzində tələbələr demək olar ki, sürülər şəklində onu dinləməyə gəldi. Konfutsinin məktəbi Antik Yunan fəlsəfə məktəbləri ilə bir çox bənzərliklərə malik idi. Heç bir məcburetmənin olmadığı, qeyri-rəsmi bir mühit hakim idi. Ustad bəzən tələbələri ilə söhbət edir, bəzən də ortalıqda gəzinir, bəzən

də tələbələri ilə birgə bir ağacın kölgəsində otururdu. Ustad, arasıra daha çox sual və cavablardan ibarət olan dərslər verirdi.

Onun verdiyi cavablar əsasən doqmalardan ibarət olmuşdu.

*“Hazırlıqsız bir ordunu müharibəyə təşviq etmək onu məhvə məhkum etmək deməkdir”.* (Lun Yuy XIII, 30)

*“Alicənab şəxs sözdə yavaş, işdə cəld olmağı sevir”.* (Lun Yuy, 24)

*“Bir xəta etmək və bunu düzəltməmək: bax əsl xəta budur”.* (Lun Yuy, XV, 29)

Bunlara bənzər bir çox söz günümüzdə olduğu kimi iki min beş yüz il əvvəl də eyni dərəcədə banal idi. Və yenə də Konfutsinin axmaqlara qarşı amansız olduğunu öyrənirik: *“əgər mən bir nəfərə küncü götərirəmsə və bu şəxs dediklərimi digər üç küncə də aid etmirsə, ona bir daha təkrar etmirəm”.* (Lun Yu, VII, 8)

Konfutsinin məktəbində işin asan olanına qaçanlara və qanmazlara (qorxaq və ikiüzlü insanlara) yer yox idi. Normalda bir neçə tələbəsi var idi. Bunlar həm əsilzadə soyundan, həm də kasıb insanlar arasından seçilmişdi. Konfutsinin günümüzədək gəlib çatmış heç də bütün sözləri banal deyil. Bəziləri mübahisəli, bəziləri bir qədər bulanıq və ya çox qarışıq, bəziləri isə olduqca əsaslı keyfiyyətə malikdir. (*“Sözlərini anlamadığımız insanı tanımaq mümkün deyil”, “Dolu bir həyat axtaranlar onun içərisindədir, boş bir həyat axtaranlar isə başqasında imiş kimi görünürlər”.* Onun aforizmlərində bəzi incə Asiya yumorunun elementlərinin olduğunu qeyd edirlər. Ancaq təəssüf ki, bunlar qərbli qulaqların anlamaq qabiliyyətinin mənzilindən kənarda qalır).

Konfutsi hər şeydən əvvəl bir əxlaqçı idi. O, hər zaman səmimi idi və bəlağətə şübhə ilə yanaşırdı. Məqsədi tələbələrinə necə davranmalı olduqlarını göstərmək idi. İnsanları idarə etmək istəyirdilərsə, əvvəlcə özlərini idarə etməyi bilməli idilər. Hər şeydən əvvəl nəzəriyyəsinin şahdamarı bilinən bir tembri özündə ifadə edirdi: *"Əxlaq insan sevgisidir".* Konfutsi İsa-dan 500 il əvvəl insanın bu ən dərin intuisiyasını qəbullanmış və mənimsəmişdi. Ancaq bu dini bir prinsip olaraq başa düşülməməlidir. Konfutsi bir din yaratmış ola bilər, ancaq onun təlimi dini deyildir. Həm eyni zamanda onun dini də bu cür deyildi - və bu Çin tapmacası heç şübhəsiz ki, bu təlimin uzun ömürlü olmasında təsirli olmuşdu.

Bu paradoksun başqa bir xarakterik cəhəti də var idi. Konfutsinin təlimi din olmasa belə, özü məhz dindar biri idi. Ən azından insanların bir çoxu üçün bu cür görünürdü. Və bu suala birbaşa cavab verməkdən çəkinmişdi. Bu mövzuda verdiyi şərhlər tamamilə səmimi deyil, əksinə olduqca sirli idi. Onun bu mövqeyinin nəyə əsaslandığını heç vaxt bilməyəcəyik - məqsədəuyğunluğamı, yoxsa siyasi düzgünlüyəmi.

O, Kosmosda xeyir qüvvələrin olduğuna ürəkdən inanırdı – inanmaq faktının ən yüksək mərtəbəsində inanırdı – bəziləri bu inancı Yüksək Nizama olan inanc kimi də adlandıra bilərdi. Ancaq bu optimistlik heç bir təcrübi sübutla dəstəklənəcək növdə deyildi. Konfutsi səmaya hörmət edən (Səma qorxusuna malik) əxlaqlı insan kimi tanınırdı. Bununla yanaşı, o, öz dövrünün bir çox dini əsaslı vərdişlərini də fanatiklik olaraq qiymətləndirirdi. Digər tərəfdən isə rituallara heyran idi və onları çox faydalı hesab edirdi.

Bu və başqa bir sıra məsələlərdə Konfutsi Sokratla təəccüblü dərəcədə bənzərlik göstərirdi. Və həqiqətən də bəzi böyük sinoloqlar Konfutsini sokratvari İsaya bənzədirdilər (Bu əsassız iddialar

çox vaxt tarixin bu üç böyük şəxsiyyətini qaralamaqla yanaşı, eyni zamanda həqiqətin insanı heyrətləndirən zərrəsini də özündə daşıyır).

Konfutsinin dini olmayan din qurduğu bir dövrdə soydaşlarından başqa biri də digər bir Çin dini olan Daoizmin əsasını qoyurdu. Kainatın metafizik vahidliyinə olan mistik inancı Konfutsiçiliyi qəribə şəkildə tamamlayırdı. Bu dinin qurucusu əfsanəvi filosof Lao Tszu idi. Konfutsi öz məktəbini yaratdıqdan sonra hörmətli və dərviş həyatı sürən Lao Tszunu tanımaq üçün yola çıxmışdı. Qoca müdrik isə Konfutsini qüruru və iddialı olduğu üçün azarlamışdı. Konfutsi bütün bunlara rəğmən Lao Tszudan çox təsirlənmişdi. Onu səmaya çıxaraq küləklərin və buludların üzərində uçan əjdahaya bənzədirdi. Konfutsinin bu qeyri-adi poetik qeydləri peyğəmbərvari tərəfləri ilə ortaya çıxacaqdı. Çünki bir müddət sonra Lao Tszu da tarix səhnəsindən çəkiləcəkdi. İki yüz yaşında ikən bir dağ keçidində qərbə gedən dumanlı bir yolda arxasında heç bir iz buraxmadan itmişdir. Sanki çatdığı buludda gəlişi belə hiss edilməyib.

Konfutsinin təlimlərinin açarı Çin heroqliflərindən *Jen* ilə simvolizə edilə bilər. Bu könül ucalığı, əxlaqlılıq və insan sevgisi birləşməsinə uyğun gəlir. Bu xristian inancında himayədarlıq və mərhəmət anlayışına olduqca yaxındır. *Jen* eyni zamanda Zen-Buddizm təlimindəki *zen*-in də öncüsüdür. *Jen*-lə yanaşı Te (müdriklik) və *Ji* (dürüstlük) Konfutsinin əvəzolunmaz xüsusiyyətlərindən idi. O, gündəlik həyatda *Li* (əxlaq)-nin gərəkliliyini və ənənəvi rituallara əməl olunmasının gərəkdiyini vurğulayırdı. Müşahidə deyildiyində onun burada başa düşdüyü, bunun iman ilə tətbiq olunması gərəkdiyidir. Əgər rituallar formal bir hal alacaq olsa, o zaman həm fərdi, həm də ictimai varlığın daxilindəki ruhun çöküşü baş verərdi.

Çin heroqlifi olan *“jen”* iki hissənin birləşməsindən ibarətdir: “insan” və “iki”. İnsan + iki = insanlıq üçün insan. Başqa sözlər *“jen”* insanların fərdi mənəvi əxlaqına diqqət yetirmir, daha çox özünü ictimai sferada göstərən sosial davranış və əxlaqi xarakteri ifadə edir. Konfutsi *“jen”*-in mənasını öz sözləri (Analektlər və “Mülahizələr və söhbətlər” əsərlərində) ilə izah edirdi: *“Jen”*-in nə mənaya gəldiyi soruşulduqda Konfutsi cavab verdi: *“Ətrafdakı insanlara sevgi mənasına gəlir”..* Daha sonra o bu fikrini inkişaf etdirdi: *“Jen-ə hər kəsin daxil etməli olduğu beş şey var, hörmət, dözümlülük, ağıla əsaslanan çalışqanlıq və comərdlik. Əgər bir insan hörmətlidirsə, heç kim onu təkəbbürlü olmaqda ittiham edə bilməz, dözümlüdürsə, kütlələri ələ keçirə, arxasınca apara bilər. Əgər insan etibarlıdırsa, insanlar özləri ona güvənəcəklər. Çalışqan və iti ağıllı olarsa, hər zaman nəticə əldə edəcəkdir. Comərd olarsa, digər isnanlara liderlik edəcək qədər yaxşı biri olar”.*

Konfutsi *“jen”*-i təhsilin bir parçası olaraq görürdü. Onun fikrincə, bir insana bu ideyaları öyrətmək, öz təcrübəsindən öyrənməsindən daha yaxşı idi. Konfutsinin dövründə təhsil bir sahədə ixtisaslaşmaqdan daha çox necə daha yaxşı davranılacağını öyrətmək olaraq görülürdü. Konfutsinin isə mövqeyi belə idi. Bilik əldə etmək müdriklik idi, lakin *“jen”* deyildi. *“Jen”* özündə sadəcə əxlaqı deyil, eyni zamanda çinlilərin bir çox ənənəvi dəyərini, xüsusilə də uşaqların öz valideynlərinə qarşı hörmətli davranışını əhatə edirdi. Bu sadəcə olaraq valideynlərə hörmət etməkdən daha artıq mənaya gəlirdi və bütöv bir ənənəvi dəyərlər sisteminin və ritualların təbiqini nəzərdə tuturdu.

Konfutsi dövründə Çin əxlaqı ənənələri artıq kifayət qədər inkişaf etmişdi. İki əsas anlayış var idi: *“Dao”* və *“Te”*. *“Dao”* İsanın *“Mən işıq və yolam”* dediyi zaman ağılında tutduğu *“yol”* olaraq tər-

cümə edilə bilər. *Dao*-nun bizə daha tanış olan Qərb ekvivalenti isə *Dao*-da təmsil olunan irəliləyiş elementinə malik olmasa belə *"Həqiqət"* sözü ola bilər. Bir insan öz mənəvi sağlamlığı üçün Yol-a riayət etməsi çox vacibdir. Ancaq *Dao* təkcə fərdlə bağlı deyil, dövlət də bir bütöv olaraq Yol-a bağlı qalmalıdır.

Konfutsinin *Dao*-ya qarşı münasibəti çox mübahisəli idi. O, gülməli bir ironiya ilə qeyd edirdi: *"Yol haqqında danışdığı gün ölən insan, əbəs yerə yaşamamışdır".* Konfutsi bu anlayışdan meydana gələn dinlə, yəni insanın daxilinə baxmağı qəbul edən və insanı cəmiyyətdən uzaqlaşmağa təşviq edən Daosizm ilə maraqlanmırdı. Konfutsi üçün cəmiyyət həyatına daxil olmaq əxlaqi bir addım idi. Digər tərəfdən o, əxlaqi prinsiplərə istinad edərkən *Yol*-u təsdiqləmiş olurdu. *"Jen"*-in öyrədilməsində ayinlərin və ritualların rolu vacib idi.

Çin əxlaqının digər bir əsas anlayışı isə *"Te"* idi. *"Te"* adətən *"fəzilət"* kimi tərcümə olunsa da, *"almaq"* mənasını verən *"te"* sözündən gəlirdi. Yola riayət edən insan fəzilət qazanırdı. Ancaq burada belə Konfutsi ziddiyyətli mövqe ortaya qoyurdu. Səyahətləri ərzində məşhur Xuan-Di tərəfindən təqib edildiyində və həyatı təhlükəyə düşəndə Konfuts*i "Səma"*-dan fəzilət aldığımıza eyham vuraraq soyuqqanlılığını belə ifadə edirdi: *"Səma mənə fəzilət verdi. Xuan-Di, mənə necə zərər verə bilərsən?"*. Sözlərinin çoxunda Konfutsi *"Səma"*-dan fəzilət aldığını təbliğ edən bir şəxs olaraq qarşımıza çıxır. Bu insandan insana fərqlilik göstərə bilər, lakin hər birimiz onu inkişaf etdirməliyik. Fəzilət yetişdirmək hər birimizin əsas əxlaqi qayğımız olmalıdır. Bunu etməmək isə Konfutsinin əsas qayğısı idi. *"Fəzilət tərbiyə edə bilməmək, öyrəndikləriniz üzərində düşünə bilməmək, bildiyiniz şeylər üzərində dayana bilməmək, çatışmazlıqlarınızı düzəldə bilməmək - bütün bunlar məni narahat edir."*

*"Te"* eyni zamanda ictimai rol modeli oynayırdı. İctimai nizam intizam cəza və ya nümunə yolu ilə təmin oluna bilərdi. *"Xalqa qanunlarla idarə etsəniz və cəza ilə nizam-intizam yaratsanız, o zaman insanlar cəzadan qaçmağa çalışar və heç nədən utanmazlar. Lakin insanları fəzilətlə idarə edər və rituallarla nizam-intizamı təmin etsəniz, xalq utancın nə olduğunu anlayacaq və özünü düzəldəcəkdir".* Bu diktələr son dərəcə nikbin səslənir. Eradan əvvəl VI əsrdəki Çin şərtlərində - Çjou sülaləsinin böhranlı dövrlərində, ölkənin absurd və xırda diktatorlar və hərbi liderlər tərəfindən idarə edildiyi bir dövrdə bu cür humanist məsləhətlər böyük bir axmaqlıq kimi görünürdü. Bu cür hərəkətlərlə nəyə nail olmaq olardı? Daha az zorakılığın olduğu qanunlar? Yoxsa daha razı əhali?

Bu ifadənin ən diqqət çəkən yanı onun özünəməxsusluğudur. *"Te"* irəliyə doğru təkamül yolunda bir addım idi. Comərdlik, nəciblik və nümunə olmaq – bütün bunlar şübhəsiz ki, bir yenilik idi və ibtidai vəhşilik dünyasında mümkünsüz görünürdü. Bu prinsiplərin yaşaması üçün ən azından bir möcüzəyə ehtiyac var idi. Nəticədə həm Çində (Konfutsiçilik), həm də Qərbdə (Xristianlıq) belə bir möcüzə baş verdi. Vəhşi daxili sarsıntılar mühitində böyüyən bu humanist prinsiplər olmasa idi, insan sivilizasiyası mövcud ola bilməzdi (Biz sadəcə belə bir humanizm ünsürü olmadan inkişaf edən Qədim Misir və Mayya sivilizasiyalarının qan və dəhşətinin şahidi ola bilərdik). İnsan cəmiyyətinin Konfutsi tərəfindən atılan bu ilk "inanılmaz" təkamül addımını qiymətləndirmək çətindir. Onun bu yeni insanlığı elan etməsinə nəyin səbəb olduğunu yalnız təxmin edə bilərik. Yaxından baxdığımızda, bütün bunların barbarlığın bataqlığından çıxmağımıza və insan potensialımızı həyata keçirməyimizə icazə verdiyini görəcəyik. Bəs görəsən, Konfutsi atdığı addımın mümkün nəticələrindən xəbərdar idimi?

Cavab yetərincə aydındır: Konfutsi yalnız Tanrıya və xeyirxah bir Tanrıya imanla belə bir şeyə ilhamlana bilərdi. Ancaq gəlin mərhəmətli olaq, Konfutsi ən yaxşı halda aqnostikdir! Rituallardan təsirlənirdi, ancaq işi Tanrıya, o biri dünyaya və ya hər hansı bir metafizik inanca gələndə bundan qaçırdı. Bir dəfə Tzu-Lu ölülərin ruhuna və tanrılara necə xidmət edəcəyini soruşdu. Ustad cavab verdi: *"Bir insana belə xidmət edə bilməzsən, ruhlara necə xidmət edə bilərsən?".*

*"Bəs ölüm haqqında soruşa bilərəmmi?"*

*"Həyatı belə başa düşə bilməzsən, ölümü necə başa düşə bilərsən?"*

Şübhəsiz ki, Konfutsi dilə gətirilə bilməyən bir şeyə inanırdı. Bu bir şey transendental deyildi, amma əsasən digər dinlərlə eyni əsas məqsədlərə xidmət edirdi. O, insanın əxlaqi taleyinə inanırdı. Ən yaxşı insana çevrilərək mümkün olduğu qədər inkişaf etmək məcburiyyətindəyik. Və bu da həyatı mənalı yaşamağın tək yoludur. Konfutsi yaxşı əməllərin əvəzinin veriləcəyi və günahların cəzalandırılacağı axirət düşüncəsinə yaddır. Həyatdan sonrakı mükafat üçün yox, mükəmməllik üçün inkişaf etməyimiz lazımdır. Beləliklə, Darvindən iki min il əvvəl təkamül nəzəriyyəsinə son dərəcədə oxşar olan sekulyar bir din ortaya çıxdı. Humanizmdə həddindən artıq nəcibliyi ifadə etməyin orijinal yolu yaxşılıq naminə yaxşı məqsədlərə çatmaqdır.

Əlbəttə ki, belə bir yüksək hissin olması çox yaxşıdır, amma praktikada necə davranmalıyıq? Bu praktiki tərəfləri olmasaydı, Konfutsi Konfutsi olmazdı və onun etik görüşləri də gündəlik həyatda davranış qaydaları üçün xüsusi reseptlər sistemini əks etdirməzdi. *"Təvazökar ol"* və *"özün üçün istəmədiyini başqasına*

*etmə”* kimi tövsiyyələr verirdi. Bunlar mövqe və həyat prinsipiləri idi: *“İctimai vəzifələrini şikayət etmədən yerinə yetirin, şəxsi vəzifələrini şikayət etmədən yerinə yetirin”*. Qarşımıza *“sülh içində və qorxusuz yaşamaq”* məqsədi qoymalıyıq. Amma necə? *“Bir insan özünü sınamış və özünü nə ilə günahlandıracağını tapmayıbsa, onu nə narahat edə bilər? nə qorxuda bilər?”*

Müasir bir insanın nəzərində bu, Konfutsi etikasının ən zəif nöqtələrindən biri kimi görünür. Etikamız sosial həyatın bərabərçi tərəflərini əks etdirməyə meyllidir. Buna görə də, Konfutsi əxlaqının iki min beş yüz il əvvəl hökm sürən Çjou sülaləsi dövründəki Çin cəmiyyətinin ibtidai və sinfi təbiətinə uyğun olması elə də təəccüblü deyil. Konfutsi etikaya sinif mənsubiyyəti kimi baxırdı. Əxlaqi potensiallarını reallaşdıran insanlar *“Jen”* olurdular. Bunlar ölkənin ən yaxşı insanları - hakim təbəqənin nümayəndələri idi.

Ancaq idarə edənlər eradan əvvəl VI əsrdə Çinin geri qalanından və hakim sinifindən daha yaxşı olduqlarına çoxdan inanmış vəziyyətdə idilər. Bu bariz gerçəkliyi təsdiqləmək üçün Konfutsiyə ehtiyac yox idi. Digər tərəfdən onlar adi insanların özlərinin davrandıqları kimi davrana biləcəklərini xəyal belə etmirdilər. Səma qadağan edirdi! *“Mənim dediyim kimi et, sənin etdiyin kimi yox”.* Əxlaq hər zaman sinfi xarakterdə olmuşdu. Cəmiyyət sizin yararınız və müdafiəniz üçün təşkil olunduğu zaman yaxşı olmaq asandır. Ancaq qaydalar sizin tərəfinizdə olmadıqda xeyirxah olmağa daha az meyl edirsiz (Bu insanlıq tarixi boyu dünyanın bütün həbsxanalarında müşahidə olunan gerçəklikdir).

Burada Konfutsi zəhlətökən kimi görünə bilər, amma onun əxlaq anlayışı əslində sinif problemini həll etmək cəhdi idi. Alicənab bir insan yuxarı sinifdən ola bilər, amma onun kimi davrandığın müddətcə aranızda heç bir fərq qalmaz. Amma Konfutsi daha da

irəli getmişdi. Alicənab bir insan nümunəvi davranış sərgiləməlidir (sözün əsl mənasında). Alicənab bir insanın əxlaqı başqalarına örnək olmalıdır (əks halda, o, alicənab bir insan deyildir). Beləliklə, Konfutsi əxlaqı universal, bütün siniflərə və hər zamana uyğun hala gətirmiş oldu.

Bütün bunlara baxmayaraq, onun etik xarakterli bəzi praktik tövsiyələrində sinfi yanaşmanın izləri qalır: "Çi şahzadəsi Tzu Konfutsiyə idarəetmə haqqında suallar verdi. Konfutsi isə cavab verdi: *"Qoy hökmdar hökmdar olsun, vətəndaş vətəndaş olsun, ata ata olsun, oğul da oğul olsun".* Şahzadə cavab verdi: *"Əla! Doğrudan da, hökmdar hökmdar deyilsə, vətəndaş vətəndaş deyilsə, oğul oğul deyilsə, heç nədən əmin ola bilmərəm və üstəlik, növbəti dəfə nə vaxt yemək yeyəcəyimi də bilmirəm."* Bəziləri, şahzadənin mədəsinə xüsusi diqqət yetirdiyini söyləyən Konfutsi təliminin bu hissəsində ironiya elementi tapacaq, amma bu, doğrudur. Konfutsi etikası inqilabi idi, lakin siyasi cəhətdən o, mühafizəkar olaraq qalırdı. Ətrafında gördüyü siyasi anarxiya və əzabları nəzərə alsaq, bu, elə də təəccüblü deyildi. Belə vaxtlarda *"əvvəlki köhnə günlərdə olduğu kimi güclü bir ələ"* ehtiyac yalnız qoca eksantriklər (başqalarından fərqli olan, hamı kimi olmayan) tərəfindən hiss olunmur. Erkən Çjou sülaləsinin keçmişi Konfutsi üçün qızıl dövr kimi görünürdü. Bu dövrlər İmperatorun itaətkar hakimlər üzərində hökmranlıq etdiyi güclü hökumətin, mədəni rifah və sabitliyin olduğu dövrlər idi. Konfutsinin yaşadığı dövrdə mövcud sistem çökməyə və hakimlər ölümcül hərbi liderlərə çevrilməyə başlamışdı. Onun gözündə sinifli cəmiyyətin tək alternativi anarxiya idi.

Lakin yenə də Konfutsi üçün əxlaqi cəmiyyətin təməl daşı sinif yox, məhz sevgi idi. Burada Konfutsiçiliyi Xristianlıqla müqayisə edə bilərsiniz. Hər iki təlimin əsas prinsipi *"insanın öz qonşusuna olan*

*sevgisi"* idi. Ancaq Konfutsi, şəxsi sevgi prinsipinin bir bütöv olaraq cəmiyyətə genişləndirilə biləcəyini irəli sürmək üçün kifayət qədər cəsarətli (və ya nikbin) idi. Xristianlıq qısa şəkildə *"Sezarın haqqı Sezara"* cümləsi ilə ifadə oluna bilər. Fərdə və onun xilasına böyük önəm verən və digər inananlara qarşı sevgisiz maraq göstərən zalım imperiyada *"kölə əxlaqı"* olaraq tanınırdı. Əsrlər sonra, bu fikirlər marksizmə çevrildi, lakin Xristian Qərbin hökmdarları mücərrəd idealistlərdən daha çox realist praqmatistlər olaraq qalmaqda davam edirdi. Konfutsiçilik ənənəvi Çin fəzilətlərini yenidən işləmişdi və Çin həyat tərzi ilə sinonim olan ictimai əxlaq sistemi təklif edirdi.

Dövrlər bir-birini əvəzlədi, nümunəvi əxlaq və hər insanın öz qonşusuna olan sevgisi tədricən Çinin özü ilə birlikdə dəyişdi. Müasir Çin ideoloqlarının qızğın etirazlarına baxmayaraq, Konfutsiçiliyin elementləri Maoist Marksizmdə də müşahidə olunur. Bu ölkədə marksizmin öz tənəzzül dövrünü yaşamasına baxmayaraq, Çin xalqı və hökumət arasındakı əlaqə anlayışı hər zamankı kimi güclü olaraq qalmaqdadır. Çin Qərb fikirlərini mənimsədikcə, Qərblə Şərq arasındakı mədəni oxşarlıq və fərqliliklər haqqında məlumatlılıq bir xeyli artdı. Konfutsi öz söhbətlərinin on üçüncü kitabını siyasi fəlsəfəyə həsr edib. O, bir neçə adi, olduqca sadə məsləhətlə başlayır: *"Tzu-Lu hakimiyyət haqqında soruşdu. Ustad isə cavab verdi: "İnsanları nümunə ilə çalışmağa məcbur edin."*

*"Tzu-Lu başqa nə etməli olduğunu soruşdu. Ustad cavab verdi: "Səylərinizi heç vaxt azaltmayın".*

*"Hökumətdə necə işləmək barədə soruşulduqda isə Konfutsi belə cavab verdi: "Kiçik səhvlərə qarşı dözümlü olun və istedadlı insanları isə mükafatlandırın".*

*"Bəs istedadlı insanları necə tanımalıyıq?"*

Ustad cavab verdi: *"Özünüz seçdiyiniz insanları mükafatlandırın. Seçmədikləriniz sizsiz də irəliləyəcək".*

Ancaq tezliklə ustad bu cür banal fikirlərdən uzaqlaşdı. Hökumətə təyin ediləcəyi təqdirdə ilk olaraq nə edəcəyini soruşduqda isə Konfutsi belə cavab verdi: *"İlk növbədə bütün adların doğru olduğuna əmin olardım".*

*"Doğrudanmı? Bu axmaqlıq deyilmi?"*

*"Sən nə cahil axmaqsan! Nə danışıldığını başa düşmürsənsə, susmağın məsləhətdir".*

Bəxtsiz tələbəsini azarladıqdan sonra Konfutsi linqvistik hökumət nəzəriyyəsini inkişaf etdirir: *"Adlar səhvdirsə, sözlər öz məqsədinə çatmayacaq. Və əgər sözlər uğursuz olarsa, heç bir şey düzgün icra edilə bilməz. Bir şey düzgün icra edilə bilməzsə, rituallar qarışıq olar, musiqi ziddiyyətli olar və cəzalar da artıq cinayətlərə uyğun gəlməz. Cəza artıq cinayətə uyğun gəlmədikdə, heç kim hansı dünyada yaşadığını bilməz. Buna görə də, kimsə bir şey düşünübsə, düşündüyünü açıq şəkildə izah etməlidir. Və kimsə bir şeyi tapşıranda mütləq onu yerinə yetirəcək biri olmalıdır. Dilin insanları birləşdirdiyi yerdə doğruluq hər şeydən vacibdir. Yanlış şərhə səbəb olacaq bir şey qalmamalıdır."*

Bütün bunlar çox yaxşıdır, amma bu sizin üçün bu qədər önəmlidirmi?

Bütün bunların hökumətdə həqiqətən edilməsinə ehtiyac olduğu kimisə təəccübləndirə bilər (Anlaşılmaz əmrlər əsrlər boyu idarəetmənin ayrılmaz bir hissəsi olmuşdur).

Konfutsi növbəti mövzudan bəhs edərək bu yanaşmasını yenə də müdafiə edir. Ondan əkinçilik vərdişləri barəsində soruşulduqda, əkinçilik haqqında heç bir şey söyləməyən uzun bir cavab verdi. "Fan Çi Konfutsidən ona toxum yetişdirməyi öyrətməsini istədi. Ustad isə cavab verdi: *"Təcrübəli bir kəndli bunu məndən yaxşı edəcək".* Sonra ondan tərəvəz yetişdirməyi öyrətməsini istədi. Konfutsi isə cavab verdi: *"Təcrübəli bağban bunu məndən daha yaxşı edəcək".*

Fan-Çi getdikdən sonra Konfutsi hayqırdı: *"O necə də cahil axmaqdır! Hökmdarlar ayinləri izlədiklərində, heç bir sadə insan hörmətsizlik etməyə cürət etmir. Onlar ədalət mühakiməsini həyata keçirəndə heç kim itaətsizliyə cürət etmir. Təvazökarlıq tələb etdikdə, heç kim səmimiyyətsiz olmağa cürət etmir. Bu fəaliyyətləri icra etdikdə, ölkənin hər tərəfindən insanlar uşaqlarını bellərinə bağlayaraq axın edirlər. Bəs o zaman toxum yetişdirməkdən danışmağın mənası nədir?"*

Ancaq burada Konfutsi bir qədər ziddiyyətli mövqe tutur. Əvvəlcə praktiki qabiliyyətləri inkar edir, daha sonra isə yenidən onların təhsildəki üstünlüyünü vurğulayır: *"Ənənəvi "Mahnılar Kitabı"dan üç yüz şeiri əzbərdən oxuya bilən bir insan xəyal edin. Ona məsuliyyətli bir vəzifə verəcəksən, amma o, bu işdə bacarıqsız olacaq. Onu diplomatik vəzifə ilə xaricə göndərəcəksən, amma o, təşəbbüsü ələ almaq məsələsindəki bacarıqsızlığını sübut edəcək. Nə qədər əzbər bilsə də, bu şeirlərin nə faydası var?"*

Şeir yazmaq turp əkməkdən fərqlənmir – hər ikisi də *"jen"*-ə sahib olmaq üçün eyni dərəcədə faydasızdır. Əgər kimsə bu keyfiyyətə sahibdirsə, qalan digər şeylər də onu təqib edəcək. *"Əgər hökmdar dürüstdürsə, ona itaət əmr edilmədən olacaq; əgər özü vicdansızdırsa, əmr verilsə belə, heç kim itaət etməyəcək".*

Bir çox Konfutsi kəlamı kimi, bu da çox məntiqli və ağlabatan səslənir, amma praktikada tamamilə uydurmadır. İnsanlar təbiətən xoş niyyətli, vicdanlı və humanist bir hökmdardan daha çox qaniçən, zalım bir hökmdara itaət etməyi üstün tuturlar. Bəs nə üçün bu məsləhət məntiqlidir? Çünki Konfutsi dövrünün iyrənc və həyasız hökmdarlarının davranışlarını yaxşılaşdırmağa çalışırdı. Nələrisə yaxşılaşdırmaq üçün edilən bütün cəhdlər təqdirəlayiqdir. Lakin bu istiqaməti seçməklə Konfutsi öz tövsiyyələrini müəyyən bir məkan və zamanla məhdudlaşdırmış oldu.

Bütün siyasi tövsiyyələr bu çatışmazlıqdan bu və ya digər dərəcədə əziyyət çəkirlər. Məsləhətlər indiki vəziyyətə nə qədər çox uyğundursa, bir o qədər tez öz faydasını itirir. Konfutsinin siyasi nəsihətlərini siyasi liderlik mövzusunda başqa bir böyük əsər olan Makiavellinin "Hökmdar" əsəri ilə müqayisə edək. Bir çox hökmdarın insanların mədəni və nümunəvi davranışlarından ilham almasının lazım olduğu ilə razılaşdığı İntibah İtaliyasında Konfutsinin siyasi tövsiyyələri yersiz idi. Makiavellinin yazıları hökmdarın siyasi reallıqlara gözlərini açmaq məqsədi daşıyırdı: pis davranış həmişə qalib gəlir. Eyni səbəbdən də "Hökmdar" əsəri mərhum Çjou sülaləsinin hər hansı hərbi lideri üçün tamamilə lazımsız olardı. Əxlaqsız müqavilə və saxtakarlıq ikinci təbiət, vəzifəsini davam etdirmək istəyən hər bir Çjou hökmdarı üçün vacib olan xüsusiyyətlər idi. Konfutsi sadəcə olaraq balansı daha mədəni yanaşma lehinə dəyişdirməyə çalışırdı.

Konfutsinin məqsədlərinə çatmasının əsas təminatçısı onun pedaqoji qabiliyyətləri idi. Onun məktəbinin əsas vəzifəsi ictimai və siyasi fikirlərini, insani münasibətlər və dostluq əlaqələrini inkişaf etdirəcək məmurlar yetişdirmək idi. O, hər zaman *"jen"*-in məqsədinin bir insana deyil, bütövlükdə cəmiyyətə fayda vermək

olduğunu vurğulayırdı. *"Jen o qədər böyükdür ki, bütün insanlara sülh və xoşbəxtlik gətirə bilər"* deyirdi. Bu yeni idarəçilərin öz fəaliyyətlərini inkişafları və yüksəlişləri üçün bir vasitə deyil, bir çağırış olaraq görəcəkləri güman edilirdi. *"Maaşınızı tək məqsədinizə çevirmək ayıbdır"*, deyilirdi. Dürüst insan yoxsulluqdan qorxmamalıdır.

Cəmiyyətin sinfi sisteminə qarşı bütün hörmətinə baxmayaraq, Konfutsi məktəbində bunu dəstəkləmirdi. Mənşəyindən asılı olmayaraq təhsilin hamı üçün olduğuna inanırdı. O dövrdə yalnız yuxarı siniflərin nümayəndələri təhsil alırdılar, buna görə Konfutsi tərəfindən tətbiq edilən açıq qapı siyasəti, başqa şərtlər altında bütün həyatını əziyyət və təhqir olunma ilə keçirəcək olanlara təhsil almaq üçün müstəsna fürsət vermişdi. Nəticədə, Konfutsi şagirdlərinin əksəriyyəti aşağı siniflərdən idi və onlar müəllimlərinə ömür boyu sadiq və minnətdar qaldılar. Beləliklə, Konfutsi bürokratiyaya yeni istedadların və yeni fikirlərin gəlməsində iştirak edirdi. O, nə etdiyini çox yaxşı bilirdi: *"Təhsil var olduğu zaman sinif fərqliliyi yoxdur"* (Təəssüf ki, bu ifadə bizim gözümüzdə gözəl bir xəyal kimi görünür).

Lakin gizli bərabərçiliyinə baxmayaraq Konfutsi bəzi stereotiplərini yenə də qoruyurdu: *"Zadəgan bir adamın xidmətçilərin işlərini bilməsi doğru deyil və böyük məsuliyyətlər götürməsi isə doğrudur. Kiçik bir adamın böyük məsuliyyətlər götürməsi düzgün deyil, o, xidmətçilərin işlərini bilməlidir".*

Konfutsi çox yaxşı bir ustad idi və tələbələrin əksəriyyəti də uğurlu bir idarəçi olmuşdular (Bu da yaşlanmasına rəğmən hələ də yazı rulonlarında iş elanları axtaran Konfutsinin onlara qiptə etməsi ilə nəticələnirdi). Konftsinin tələbələri özlərinə öyrədilmiş prinsipləri idarəetmənin reallıqları ilə ziddiyyət yaşandığı anda geri çəkməyi biləcək səviyyədə idilər. Konfutsinin tələbələri hakimiyyə-

tin gerçəkləri ilə qarşılaşdıqlarında ustadlarından öyrəndiklərini arxa planda saxlamağı bacaracaq qədər ağıllı və oyaq idilər. Əgər onlar Konfutsinin ortaya atdığı insani və inqilabi fikirlərə sadiq olsalar, bəlkə ancaq oğlan uşaqlarından təşkil olunan xorda təmsil oluna bilərdilər.

Tələbələr bir növ mason cəmiyyəti yaratmışdılar. Təhsilləri, həyat formalarına və işlərinə yanaşma tərzlərini də müəyyən etmişdi. Yeni bir maarifçiliyin ilk toxumları atılmışdı. O dövrdən sonra insanların çox azı hökmdarların ilahi soydan gəlmiş olduqlarına və tanrının vergisi olan qabiliyyətlərə malik olduqlarına inanmaqda idi. Dövlətin həqiqətən də hər kəsin yararı üçün çalışan koorporativ bir müəssisə olduğunun fərqinə varılmışdı. Və bu yeni dövlət adamları öz ağalarını mənasız müharibələrdən uzaq tutmaq üçün edə biləcəklərinin ən yaxşısını etmişdilər.

Konfutsinin tələbələri arasında daha çox başqa əyalətlərin güclü və nüfuzlu ailələrinin uşaqları da yer alırdı. Nəticədə, hakim Lu ailəsinin bəzi üzvləri də dərslərə qatılırdı. Konfutsi Lu ailəsinin gələcəkdəki bəylərindən biri olan Yanq Hou ilə tanış olmuşdu. Yang Hou Konfutsidən çox təsirlənmişdi və hakimiyyəti ələ keçirəndə artıq çox gənc hesab olunmayacaq filosofu ədalət naziri təyin edir. Konfutsi nəhayət ki, öz prinsiplərini tətbiq edəcəyi fürsət əldə etmişdi.

Bütün mənbələr onun çox öyülən prinsipləri ilə çox əlaqəli deyilmiş kimi görünməsinə rəğmən, Konfutsinin çox uğurlu ədalət naziri olduğunda həmfikirdir. Konfutsi aman vermədən bəylikdəki cinayətkarları təmizləməyə başlayır. Onun bioqrafiyasını qələmə alan X. Gril *"Onun nazirliyi dövründə Lu ölkəsində heç bir soyğunçu yox idi"* deyə yazırdı. Hətta Konfutsi o qədər irəli getmişdi ki, adət olunandan kənar formalarda geyimlər tikən bir neçə şəxsə

belə ölüm hökmü vermişdi. Bir müddət sonra bəylikdə elə bir vəziyyət yaranmışdı ki, kişilər sakitcə yolun sağı ilə, qadınlar da yolun solu ilə gəzməyə başlamışdı. Nəhayət Lu bəyliyində işlərin çığırından çıxdığına qərar verildi. Bir nəfər Konfutsinin uzaqlaşdırılması üçün səkkiz gözəl qız (mənbələrə görə "şəhvətli qızlar") rüşvət verir. Konfutsinin təlimindən keçməmiş və təqdim olunan bu müthiş təhrikedici təklifə qarşı iradəli olmağı bacarmyan baş nazir isə hədiyyələri qəbul edir. Nəticədə, Konfutsi vəzifəsindən azad edilir. Lu bəyliyində qadınlar və kişilər yenidən yolun eyni tərəfində addımlayır, canlarını itirmə qorxusuna baxmayaraq modaya uyğun geyimlər geyməyə başladılar. Söz aparıb gətirənlərə heç kim qulaq asmırdı və canilər onsuzda özlərinə uyğun olmayan vəzifələrini bir kənara ataraq həqiqi işlərinə geri döndülər.

Konfutsi isə xidmətlərinin qarşılığı olaraq daha çox hörmətli olan başqa bir mövqeyə yüksək maaş və rütbə ilə təyin olundu. Amma çox qısa bir müddət ərzində bu məqamın arpalıqdan başqa bir şey olmadığını, əslində heç bir səlahiyyətinin olmadığının fərqinə varmışdı. Diksinərək bu vəzifəsindən ayrılır. O, hansı səkidə yeriməyi müəyyən etmək kimi dövləti yaxından maraqlandıran önəmli qərarlarda təsirli olmaq gücünü özünə verməyən bir vəzifə ilə heç maraqlanmırdı.

Bu arada Konfutsi artıq 50 yaşını keçmişdi. Məhz bu səbəblə də özünə yoldaşlıq edəcək bir neçə sadiq tələbəsi ilə bütün Çini əhatə edən həcc səfərinə çıxmağa qərar verdi. Bu ənənəvi mənəvi səyahət olmayacaqdı. Konfitsinin müqəddəs bir hədəfi yox idi və bu səfərində də aydınlanmaq arxasınca qaçmırdı. Konfutsinin həcc ziyarəti də fəlsəfəsi kimi dünyəvi idi. O, əslində iş axtarırdı. Bir iş tapmasa belə heç olmasa bir hökmdar axtarırdı. Beləliklə, ən azından prisiplərinin bir yerlərdə tətbiq oluna biləcəyini ümid

edirdi. Ancaq Konfutsi artıq məşhur biri idi. Müqəddəs Kasəni, yəni bir məmurluq işi tapmağa yönəlmiş səfəri 10 il davam etmişdi. Bəzi yerlərdə özünə məsləhətçi kimi müraciət edilsə də, davamlı olaraq bir vəzifə əldə etmək yolundakı cəhdləri ona ön danışıqlardan başqa bir şey qazandırmadı.

Bizlər sadəcə olaraq bunun nə üçün belə olduğu ilə bağlı fikir yürüdəcək vəziyyətdəyik. Artıq Konfutsi bütün Çinin ən müdrik şəxsi hesab edilirdi. Bir çox bacarıqlı dövlət məmurunu yetişdirmişdi. Hətta özü də aşağı keyfiyyətli vəzifələri tutmuş və bu əsnasda nə rüşvət almış, nə də rəhbərini düşmənlərinə satmışdır. Bu cür davranış formaları o vaxtlarda bir növ bidətçilik kimi qəbul edilirdi. Məhz buna görə də, Konfutsinin realda var olmadığı, yaşamadığı, bütövlükdə əfsanəvi qəhrəman olduğu inancı ortaya çıxmışdı). Açıqcası bütün bunlar onun davranış tərzindən ortaya çıxmış olmalı idi: Bu çox ciddi olması, güzəştə getməyən mövqeyi ilə, xoş olmayan vərdişləri ilə, ya da sadə ifadə isə insanı əsəbləşdirən halı ilə əlaqədar bir şey idi. Deyəsən, Çin hökmdarlarının Konfutsini nə üçün bəyənmədiklərini heç vaxt tam şəkildə öyrənə bilməyəcəyik. Onun yazılarını oxuduqdan sonra, şəxsən mənə elə gəlir ki, bütün bu insanlar üçün Konfutsi sadəcə olaraq qorxunc can sıxıntısı yaradan bir adam hesab edirdilər.

Hətta 10 illik səhayəti əsnasında yaşadığı macəralar belə - onda vərdiş edildiyi kimi – çox da maraqlı keçməmişdi. Vei ölkəsinə çatanada buranın hökmdarının pis şöhrəti ilə tanınan bacısı, özəl olan tələbəsi Nan Tzu-nun hüzurunda olmuş və tələbələri də bunun qarşılığında dəhşətə qərq olmuşdular. Konfutsinin tələbələrini sarsıdan bu hekyani tarixi namus qoruyucusu bir mövqe ilə senzuraya məruz qoymuşdu. Əgər saray daxili insest münasibətlə bağlı axmaqca dediqoduları bir kənara atsaq, Nan Tzu-nun

bu pis şöhrətini də necə əldə etdiyini öyrənə bilmirik. Konfutsi daha sonra Sun şəhərinə gəldiyi zaman həyatının təhlükədə olduğu xəbərdarlığa ilə qarşılaşır. Məhz bu xəbərdarlıqdan sonra *“gözə batmayacaq formada geyinir və səfərini son dərəcədə sadə şəkildə davam etdirir”.* Konfutsi Sun şəhərinə çatdığı zaman biografiyasını qələmə alan H.G.Carelin qeyd etdiyinə görə yerli hökmdar ilə gecə yarısına qədər davam edən söhbətlər etmiş, hətta qonaqpərvər ev sahibini müdriklik və qanunauyğun idarəetmənin bütün uğurların açarı olduğu fikrinə (ölkəni idarə etmək barəsindəki fikirlərinin tətbiq oluna biləcəyinə) inandırmışdı. Konfutsinin xaç yürüşü daha bir dəfə uğurlu olmuşdu: Can sıxıntısı barbarlığa qarşı yeni bir zəfər qazanmışdı. Lakin bütün bunlara baxmayaraq Vang belə Konfutsiyə bir vəzifə verməyəcək qədər xəsis idi.

Bu arada Konfutsi 67 yaşına gəlib çatmışdı. Daha az tanınan çağdaşları rihaf içərisində həyatlarında davam edərkən, o hələ də karyerasını yoluna qoymaq üçün çabalayırdı. Ən sonunda Lu bəyliyindəki tələbələri ustadlarını geri çağırmağın ən doğru hərəkət olacağına qərar verdilər. Dürüst fəaliyyət haqqında dastanlar yazan bütün dövrlərin ən praqmatik filosofunun özü üçün sabit fikrə çevrilmiş vəzifə əldə etmək marağı ilə sağollaşmaq vaxtı çatmışdı. Konfutsi sakitcə evinə dönərək ömrünün qalan 5 ilini Lu şəhərində keçirdi. Bu illər onun üçün çox kədərli olmuşdu. Ən çox sevdiyi tələbəsi Yen Hui ölür və Konfutsi ömründə ilk dəfə qısa bir müddət üçün də olsa ümidsizliyə qapılır. “*Məni anlayan heç kim yoxdur*”-, deyir digər tələbələrinə. Daxilində həyati önəmə malik olan düşüncələrinin özündən sonrakı nəsillərə çatmayacağı düşüncəsi get-gedə böyüyür.

Oğlu Li də ölür. Li-nin həyatı ilə bağlı demək olar ki, heç nə bilmirik. Onun elə də föqəltəbii bacarıqlarla önə çıxmadığı deyilir. La-

kin bunun əksini ortaya qoyan sübutlar da var. Bir neçə əsrdə Çində Konfutsinin nəslindən gəldiyini iddia edən qırx mindən çox insan var idi ki, bu da Kofutsinin fövqəladə dərəcədə "çalışqanlığa" malik olduğu düşüncəsinə səbəb olur.

Konfutsi həyatının son illərini Çinin doğulduğu dövrdə ortaya çıxan klassikləri oxumaq, düzəltmək və şərh etmək ilə keçirmişdi (Lun Yuy, *"Konfutsinin söylədikləri"* bu baxımdan qiymətləndirilməlidir. Bu sözlər üçüncü əsrin ortalarında daşlar üzərində yazılmışdı). Çin klassikləri  həm miflərin, həm də ən erkən Çin gündəlik həyatına dair ətraflı məlumatların yer aldığı *Şi-Tszin*dən "Nəğmələr kitabı") əsrarəngiz *İ-Tszin*nə ("Dəyişikliklər kitabı") qədər uzanır. Bu kitab metafizik mumbo-jumbo və psixoloji məlumatların bir araya toplandığı sehirli qarışıqdır. Bu kitabda ortaya atılanlar da insanlığın yeniyetməlik dövründə ortaya çıxan Babil astrologiyasının olduğu kimi yetərli təməllər üzərində inşa edilmiş adi hikmətli sözlərdən təşkil olunan bir formadır.

İ-Tszin mübahisə olunmaz ezoterik təbiəti Konfutsçi müdrikləri öz ustadlarının qatı praqmatik meyllərini tətbiq etməkdə müqavimət göstərdikləri üçün sıxıntıya salır. Yenə də Konfutsinin öz həyatının bir neçə ilini bu kitabı oxumaq üçün xərclədiyi inkar olunmaz bir gerçəkdir. Lu bəyliyindəki son illərində bu kitab haqqında geniş əhatəli bir şərh qələmə almışdı. İ-Tszin-in fantastik bir atmosferə malik məzmununu zarafat obyektinə çevirmək bir yana, şərhləri o qədər irəli aparır ki, hikmətli sözlərdən ibarət bu kitabı yazmaq üçün kiçik çubuqları göyə atmağı və yerə düşdüklərində onların mövqeyinə görə davranmağı məsləhət görür. Bu sanki Hegelin gizli-gizli baletlə məşğul olduğunu kəşf etmək kimi Konfutsiyə tamamilə uymaqdadır. Lakin göründüyü kimi, saat 14:30-da Şanxayda yarışı kimin qazanacağını öncədən bilmək üçün havaya

çubuqlar atmaq kimi bir sıra məşğuliyyətlərə sahib olmaq məcburiyyətindədirlər. Mənim gözümdə bu olduqca zərərsiz bir məşğuliyyətdir.

Konfutsi ömrünün son illərini öz təliminin ana xətlərini tələbələrinə öyrətməklə keçirmişdi. Ümid edirəm ki, bu qədər yazıdan sonra bu fəlsəfənin həqiqi mənada fəlsəfə olmadığı, ən azından Qərbdəki mənası ilə anlaşılmamalı olduğu qavranılmışdır. Konfutsinin təlimi bilik nəzəriyyəsi, məntiq, metafizika və estetika meylləri - yəni, ənənəvi fəlsəfə kateqoriyalarını - əhatə edir.  Ancaq burada sözü gedən bir sistem içərisində birləşməyə meyilli olmayan xüsusi ismlərdir. Konfutsi bizə zəncəfilin adını və bir gecə köynəyinin uzunluğunu Konfutsinin mətbəx və moda haqqındakı nəzəriyyəsini izah etmədən şərh etmişdir. Digər yandan onun Ədalət naziri olduğu dövrü nəzərə alsaq, sanki ona məxsus bir moda nəzəriyyəsinin olduğu da məlum olur. Ancaq bundan ötrü Konfutsinin yemək bişirmək və fəlsəfə haqqındakı nəzəriyyələri bizə gəlib çatmamış ola bilər.

Konfutsi harmoniya və fəzilətlə dolu qorxu və şübhədən uzaq bir həyat sürə biləcək ali insanlar yaratmağı məqsədə çevirmişdi. Konfutsi təlimi və şifahi tədrisi iki min il ərzində Çin idarəetmə aparatının əlində saxladığı mandarin təməl təhsilini təşkil edir. Təssüflər olsun ki, bu iyerarxik quruluş da oxşar digər quruluşlar kimi sümükləşmə taleyini paylaşmışdı. Konfutsi içərisində yaşadığı zamana uyğunlaşmağa məcbur idi təbii ki. *“Sadəcə ən ulu müdriklər və ən zəlil dəliləri dəyişdirmək mümkün deyil”* (Lun Yuy, XVII, 3). Ancaq bu xəbərdarlıq heç bir işə yaramamışdı. Bəlkə də, müdriklər və dəlilər tərəfindən əldə saxlanılan hakimiyyətlərin dəyişməz taleyi idi.

Konfutsi 479-cu ildə 72 yaşında ölüm döşəyində idi. Tələbələri onu son narahatlığında belə tək buraxmadılar. Onun son anındakı vida sözləri ən yaxşı tələbəsi olan Dsi Lu tərəfindən qeyd olunub:

*“Böyük dağ çökəcək,*

*Böyük ağac devriləcək,*

*Və müdrik keçib gedəcək, solmuş bir çiçək kimi”*

Konfutsi tələbələri tərəfindən Kufu şəhərində Sse çayının sahilindəki ailə məzarlığında dəfn edildi. Daha sonra burada bir məbəd tikilmiş və məbədin ətrafı sonrakı nəsillər üçün müqəddəs bir məkana çevrilmişdi. Fasiləsiz iki il ərzində buraya müqəddəs səfərlər həyata keçirilmişdi. Sokratdan və İsadan daha qədim olan bu şərəfli Çin ənənəsinin günümüzdəki kəsintiləri mütləq şəkildə qısa ömürlü olacaq.

Konfutsinin son sözləri, öz böyüklüyünün fərqində olduğunu, ancaq vermək istədiyi mesajın özündən sonrakılara çatıb çatmayacağını bilmək baxımından əmin olmadığını açıq şəkildə ortaya qoyur. Qorxuları olduqca yerində idi. Konfutsiçilik demək olar ki, iki min beş yüz il mövcudluğunu qoruyub saxladı, amma günümüzdə ustadın başlanğıcdakı təlimləri ilə bənzərliklər tapmaq çox çətindir (Necə ki, inkvizisiya və günahkarların tonqalda yandırılması ilə dağlarda xütbələr oxuyan şəxsi əlaqələndirmək çətindir). Konfutsinin təlimləri təkcə onun müridləri tərəfindən tərsinə çevrilməmişdi. Ölümündən iki yüz il sonra Çin ilk böyük mədəni inqilabı başladan Xan sülaləsinin üfüqdəki səhər parıltısını görməyə başlamışdı.

Bu sülalə əsas etibarilə Konfutsinin prinsipləri əsasında idarə olunurdu. O dərəcədə uğurlu olmuşdular ki, xanədan dörd

yüz il ərzində inkişaf etmiş, beləliklə digər bütün dövrlərdəki Çin sülalələri içərisində ən uzun ömürlüsü olmuşdu. Mədəni ibrət nümunəsi ortaya qoymuş, özlərindən sonrakı xanədanlar da hər zaman onları təqlid etmişdilər.

Konfutsi Qərbdə Leibnist və çağdaşı Volter tərəfindən heyranlıqla qarşılanırdı. Volter Konfutsi haqqında belə deyirdi:

*Konfutsinin təlimindən geriyə qalanlar bəylik dediqodularıdır, ustad Konfutsinin adı ilə anılan döyüşcül Kung-fu sənətindədir.*

Lakin bunlar arasındakı bənzərlik Mars şkaladı ilə Mars planeti arasında olduğu qədərdir. Ustadın təlimindən sonra mühiti ələ keçirən Çin ideologiyasındakı keşməkeşdə belə Konfutsini xatırladan yaxınlaşma eşidilir. Maonun kultlaşdırılması uzun və yenə onun kitabına qarşı duyulan ucaltma, rəhbər Maonun sözləri Konfutsi ətrafında var olan kult ilə böyük bənzərliklərə malikdir. Bir zamanlar Çindəki bütün məktəblərin divarlarında onun da şəkilləri asılırdı. O da uzun müddət davam edən dərvişlik dönəmində bir siyasi vəzifə əldə etməyə çalışırdı və "Konfutsinin klassik sözləri" böyük hörmət qazanmışdı. Təbii ki, tarixin bu formada təkrar etməsi Konfutsini heç maraqlandırmazdı belə. Bir dəfə dediyi kimi: *"Digər insanların əksinə mən həyatı, olduğu kimi qəbul edirəm"*

## Son söz: Çin fəlsəfəsi

Çin fəlsəfəsi bu kontekstdə e.ə VI əsrdə formalaşmağa başlamışdı. İlk öncə yüz məktəb yaranmışdı. Bunlar adlarından da məlum olacağı kimi, fərqlilik və çeşidlilikləri ifadə edirdi. Bu fəlsəfə daha çox dərviş filosofların çox saydakı Çin bəylikləri arasındakı səfərləri sırasında yayılmışdı. Bir filosof bir şəhərə çatdığı zaman ağıla gələ bilən hər cür öyüd nəsihəti vermək üçün öncə o şəhərdə məskunlaşırdı. Çox vaxt bu öyüdlərini həmin şəhərlərin hakimlərindən də əsirgəmirdilər. Burada haqqında danışılanlar çox vaxt hakimiyyətin və dövlətin idarə olunmasında yararlı ola biləcək prisiplər idi. Bu cür öyüdlərə o qədər qısa bir müddət ərzində ehtiyac olurdu ki, filosof bir müddət sonra özünün yenə küçədə tapırdı. Bir Qərblinin baxışından yola çıxsaq, yüz məktəbin fəlsəfəsi bu kontekstdə başa düşülən deyil. Çox zaman "dünya görüş"lərdən daha çox aforizmlər formasında idi bu fəlsəfə. Təlimin əsası da çox seyrək şəkildə strukturlaşmış və məntiqi olaraq xırdalıqları ilə düşünülmüş deyil, əksinə dini və siyasi növdən olan öyüdlərdən ibarət idi.

İlk formanın təmsilçisi Konfutsiçilik, son təmsilçisi ilə Daosizm idi. Qısa müddətdə hər ikisi də Çin fəlsəfəsinin ali məktəbləri halına gəlmişdi. Daha sonrakı dövrlərdə bu məktəblər Çin fəlsəfəsinin üçüncü böyük məktəbi olan Buddizmin təsiri altına girmişdi.

## Konfutsiçilik

Konfutsidən etibarən gələn təlimlər bu və ya digər şəkildə bu günümüzə qədər gəlib çatmışdır. Daha əvvəl də qeyd etdiyimiz kimi, Konfutsiçilik əsasən praktiki xarakterlidir. Şəxsi olduğu qədər ictimai sfera içərisində də inkişaf edən həyata dair sual mərkəzi nöqtədə yer alır. Bu səbəblə ən önəmli hissələri etika və siyasətdir. Həyatın mənası və yekun təbiəti ilə bağlı çox az fərziyyə yer alır. Yəni metafizika demək olar ki, yoxdur. Konfutsiçilik iki min beş yüz il əvvəl inkişaf etməyə başladığında da vəziyyət eyni idi. Və dövrümüzdə Yeni Konfutsiçilikdə də vəziyyət demək olar ki, eynidir. Konfutsiçilik metafizik fərziyyələr olmadan belə yaşaya bildiyini sübut etmişdir. Üç min il sonra Qərbin də istəksiz bir şəkildə və fasilələrlə eyni görüşləri mənimsədiyi görülür.

## Daoizm

Bu söz Çin dilindəki *"Dao"*–yol sözündən gəlir. Hər filosofun özünəməxsus bir daoist baxışları olsa da, Daosizmin qurucuları müdrik Lao-Tszı və onun tələbəsi olan Çunq Tszı-dır. Lao-Tszı eradan əvvəl VI əsrdə yaşamışdı. Haqqında çox az şey bilinir. Çu kralının sarayında Dövlət arxivçisi və dini məsləhətçi olaraq çalışdığı ehtimal edilir. Rəvayətlərdə Konfutsini tanıdığı, ancaq onu o qədər də ciddiyə almadığı deyilir. Daha sonra Qərbə doğu səfərə çıxmağa qərar verir. Deyilənlərə görə, Hsien-ku keçidinin mühafizəçisinin onu Dao təlimi ilə bağlı fikirlərini yazıya almadan keçməsinə icazə verməyib. Bu kitab yazarı tərəfindən "Da De Çinq" adlandırılmışdı.

Bir çox "Yüz məktəb" təmsilçisi üçün Lao-Tszı bir müdrik, bir peyğəmbər, hətta, bəlkə də, tanrı idi. Konfutsinin müridləri belə onu böyük bir filosof olaraq görmüşdü. Bu elə də başa düşülən bir məsələ deyil, çünki Lao-Tszı və Konfutsi təlimləri arasında hər han-

sı yaxınlıq yoxdur. Bəzi baxışlara görə bu iki təlim insanın iki fərqli istiqamətini əhatə edir. Digərlərinin fikrincə isə bu iki təlim düşünülə biləcək bütün nöqtələrdə bir-biri ilə toqquşmaqdadır.

Konfutsi *"insanın yolu"*-nu öyrətdiyi halda Lao-Tszı "*təbiətin yolu"*-nu öyrədirdi. Lao-Tszının fikrincə, yol böyük ölçüdə metafizik-mistik bir formalaşma idi. O, bu formalaşmada təbiətin hökm etdiyi, zamandan və məkandan kənarda olan mütləq gücü görürdü. Əgər Qərbli düşüncə xadimlərinin ümumi olaraq arzuladıqları məntiqi anlayışlar içərisində düşünəcək olsaq, başa düşülən bir şey deyil bu. Bütün bunların qərbli mənasındakı fəlsəfə ilə yaxından uzaqdan əlaqəli olmadığı yönündəki ortaya atılan iddialar da yerində deyil. Stoisizm və kinizm fəlsəfələri də əslində dünyaya qarşı bir münasibətdir.

Lao-Tszıya görə, biz Dao-nu təqlid etməli və yenə də ona uyğunlaşmalıyıq. Lao-Tszının baxışları insanın özünü kiçik dərdlərdən xilas etməsini, həyatını sadəlik və təbilik ilə nizamlamasını və beləliklə daxili bir sükunətə qovuşmasını təklif edir.

Daoizm bu cür örnək təşkil edəcək bir müəllim tərəfindən təqdim olunduğu müddətcə böyük bir gücə malik idi. Ancaq Daoizm metafizik fəlsəfə olaraq öz varlığını davam etdirəcəkdisə, ümumi bir nizamlanmanın olması zəruri idi. Bunu da Lao-Tszıdan bir xeyli sonra doğulan Çuanq Tszı gerçəkləşdirmişdi. Çuanq Tszı-nın həyatı ilə bağlı çox az şey bilirik: Bildiyimiz tək şey onun adını daşıyan "Çuanq Tszı kitabı" və Konfutsiçiliyə şiddətlə hücuma keçməsidir. Qocalanda şən və beli əyilmiş, qəribə bir adam olmuşdu. Deyilənlərə görə çırılmış paltarlar geyinir və köhnəlmiş ayaqqabılarını iplərlə bağlayırdı. Ustad, həyat yoldaşını itirdiyi zaman tələbələrindən birisi onu ziyarət edir və ustadın evinə çatdığı zaman dəhşətə gəlir. Çünki ustad otağın bir küncündə qəribə bir mahnı oxuyur-

muş və bu əsnada da özünü mahnının ritminə uyduraraq qaşığı ilə yemək tabağına vururmuş. Çuang Tsı isə özünü belə müdafiə edirdi: Əgər ağlasam və yas saxlasam, başqaları insanların taleyini qəbul etmədiyimi düşünə bilərdi. Çuanq Tszı-nın baxışlarına görə Dao pozuq və ziddiyyətli olan təbiəti, təbiətin öz yolundakı ahəngli birliyə çevirir. Bu transformasiya təbiət sadəcə təbiəti izlədiyi zaman gerçəkləşəcəkdir. Konfutsinin də öz təlimində dediyi kimi, biz insanlar insanın yolunu deyil də, əksinə təbiətin yolunu izləsək, ona çata bilərik. Dao (ya da təbiətin yolu) içərisində xeyirin və şərin yerləşdiyi, hər şeyin bir-biri ilə ahəng içərisində süzüldüyü o biri aləmə aid bir haldır.

Yenə eyni Çuanq Tszı Daonun hər yerdə, hətta qarışqalarda, ən ağla gəlməz yerlərdə, şeylərdə belə olduğunu demişdi. Tələbələrinə öldüyü zaman onu basdırmağı qadağan etmişdi. O, basdırılaraq qurdlar tərəfindən yeyilməkdənsə, qarğalar tərəfindən yenilməyi daha üstün tuturdu.

**Buddizm**

Buddizm eradan əvvəl III əsrdə Hindistandan Çinə gəlmişdi. Buddizm burada doğulduğu ölkədən uzaqlarda yaşadığı inkişaf mərhələsində, xüsusilə qədim köklərə malik Daoizmlə arasındakı çoxsaylı uyğunluqla əlaqələndirilə biləcək Çin şərtlərinə uyğun dəyişikliklər keçirmişdi.

Qərbin gözündə Buddizm fəlsəfədən çox bir dindir. Bu ikisinin fərqli düşüncələrin təməl xüsusiyyətlərində nə dərəcədə sıx şəkildə bir-biri ilə iç-içə keçdiklərini görmək üçün Orta əsr sxolastikasına nəzər salmaq kifayətdir. Bu işığın altında Buddizm şübhəsiz ki, həm fəlsəfə, həm də dindir. Metafizikası sxolastikaya olduqca bənzəməkdədir (ya da ehtiyac olduğu təqdirdə Daoizmə). Buddistlər

sxolastiklərdən fərqli olaraq taleyə inanırdılar, xüsusilə də dünyadan əl-ətəkləri çəkmək mövzusunda. Nəticədə, Buddizmin bir sıra dini fəlsəfələr əhatə edən bir hal alması çox da uzun vaxt almadı. Buddizm içərisindəki fərqli təlimləri yayan ustadların, bir-birinə düşməncə münasibətdə olmalarına rəğmən hamısı da öz yollarını Buddizm deyə adlandırmaqda idi. Burada da Xristian fəlsəfə ilə olan paralelliklər ortaya çıxmaqdadır. Amma arada bircə fərq var: Buddistlər çətin vaxtlarda başqalarını yandırmaq yerinə özlərini yandırırlar.

Buddizmin qurucusu məlum olduğu kimi Hermen Hesse və Kaliforniyalı fanatik tərəfdarları tərəfindən ideallaşdırılan Siddhartha Qautamadır. Siddhartha eradan əvvəl VI əsrin əvvəllərində Nepalda doğulmuşdu. On altı yaşında evlənmiş və on üç il boyu dəbdəbəli bir həyat yaşamışdı. Daha sonra günlərin bir günü ev-eşiyini atıb Hindistana getmiş və buraları bir dərviş olaraq gəzmişdi. Aclığı artıq təhlükəli səviyyəyə çatdığında isə aydınlanmanı öz yolunda izləyib tapmağa qərar verir. Rəvayətə görə 528-ci ildə 35 yaşında ikən peyğəmbərlik aydınlanması yaşayır (nurlanır) və Budda olur. Bu hadisə Şərqi Hindistanda bir əncir ağacı (Ficus Religiosa) altında bardaş qurmuş vəziyyətə oturduğu bir anda baş verir.

İlk əvvəl Buddizmdə meditasiyaya böyük önəm verilirdi. Meditasiya bacarığı ilə həyatın illüziyalarından və ziddiyyətlərindən azad olmuş bir mənəvi sükunətə və rahatlığa çatmaq mümkündür. Bütün bunlar sanki buludlar kimidir və biz onları sadəcə mənəvi təlimlərlə dağıtdığımızda müdrikliyin işıq saçan günəşindən fayadalana bilərik.

Çin Buddizmi, Buddizmin yayıldığı sırada Çində çox önəmli rol oynayan Daoizmdən bir xeyli təsirlənmişdi. Daha sonralar,

on birinci əsrdə isə Buddizm Konfutsiçiliyin inkişafına da təsir göstərmişdi. Yeni Konfutsiçilik Buddizmin metafizik elementlərini olduğu kimi mənimsəmişdi. Şəxsən Konfutsi tərəfindən bu müzakirə olunmayacaq bir şey idi, ancaq onun öz tərəfdarlarının gözündə təliminin içərisində yer alan bir boşluq olaraq dəyərləndirilmişdi.

## Konfutsinin söylədikləri

Konfutsinin necə yaxşı bir məmur olmağa dair nəsihətləri və bunun təsiri:

Cuansun Tzsı Ustaddan soruşur: "Üstün bir insan olmaq və dövlət xidmətinə girmək üçün nə etməliyəm?"

"Beş yüksək keyfiyyətə əməl etməli və dörd pislikdən üz çevirməlisən."

"Bu beş yüksək keyfiyyət nədir?"

"Üstün bir insan rüşvət almadan lütfkar olandır. O, insanlarla çiyin-çiyinə işləyir, inciklik üçün səbəb vermir. Onun ehtirası var, amma xəsis deyil. Ləyaqətlidir, amma həddən artıq qürurlu deyil. Qəzəbə deyil, hörmətə ilham verir."

"Bu keyfiyyətlər ilə tam olaraq nəyi nəzərdə tutursunuz?"

"Mükafat gözləmədən insanların xeyirinə işləmək səxavət deyilmi? Doğru işi lazımi adama verərsənsə, bundan kim inciyəcək? Bir insan kamilliyə çatmaq üçün ehtiraslarını atır və gücü yetən hər şeyə nail olursa - necə acgöz ola bilər? Üstün bir insan, hər zaman ölçüsündən və mürəkkəbliyindən asılı olmayaraq vəzifələrini yerinə yetirir və buna görə də, tənbəl deyilsə - bu şübhəsiz qüsursuz ləyaqət deyilmi? Alicənab bir şəxs görünüşünə diqqət yetirir. Paltarını və papağını uyğun şəkildə geyinir və digər

insanlara hörmətlə yanaşır. Ciddi davranışından dolayı insanlar da ona dərin hörmət bəsləyirlər - beləliklə o, insanları hirsə deyil, hörmətə ruhlandırır.”

“Bəs dörd pislik nələrdir?”

“Doğru təlimatları almadığı təqdirdə insanı vəzifəsini yerinə yetirmədiyi üçün ölümə məhkum etmək – bu zülmdür. Düzgün məsləhət almadan insandan bir şey etməsini gözləmək – bu təhqirdir. Bir insanın işi yerinə yetirəcəyini söyləməsinə rəğmən, onu tələsdirmək – bu zərərlidir. Mükafat vəd etmək və sonra könülsüz olaraq ödəmək – bu dar düşüncəli olmaqdır.”

*“Konfutsinin söylədikləri”*

Yaxşı idarəetmə üçün bir neçə ipucu:

“Əgər bir hökmdar özünə qarşı dürüstdürsə, o zaman itaət də əmrsiz olacaq; ancaq hökmdar özü dürüst deyilsə, əmrlər versə də ona itaət olmayacaq”

“Ancaq bir hökmdar məni işə təyin etsəydi, bütün problemləri bir aya həll edərdim və o zaman üç il ərzində bütün işlərim rahat getməsini təmin edərdim.”

“İdarəetmə haqqında danışan ustad Jan Yu-ya dedi: “Başqalarından sadəcə onlara ilk olaraq öyrətdiyin şeyi etmələrini istə”.

*“Konfutsinin söylədikləri”*

Konfutsi öyrənməyə ehtiyac olduğunu vurğulayır və ona ümumi münasibəti haqqında fikir bildirir:

“Heç vaxt öyrənə bilməyəcəksən kimi çalış, çünki itirməkdən qorxursansa, onda nə öyrənə bilərsən?”

“Təlimin sonunda işə düzəlmədən üç il oxumaq istəyən birini tapmaq çətindir.”

*“Konfutsinin söylədikləri”*

Böyük ustadın bir neçə müdrik müşahidəsi:

“Aldatma və ya xəyanət gözləməyin, eyni zamanda həmişə bunlardan ehtiyatlı olun - zirvəyə çatmaq istəyirsinizsə bu lazımdır.”

“Cəsarətli olmaq istəyən, amma yoxsulluqdan şikayət edən biri maneə yaradır.”

“Bəzi insanlar başa düşmədən hər şeyi edə bilərlər.”

*“Konfutsinin söylədikləri”*

Böyük ustadın ayrı, çox da dərin olmayan müşahidələri:

“Hava soyuyanda şam və küknar ağaclarının solmadığını müşahidə edirik.”

Hökumətlə bağlı daha çox məsləhət istədikdə, ustad “heç vaxt yorulmayın” cavabını verdi.

Ustad Vei-li Kundzuçin haqqında dedi: “O, şeylərdən necə həzz almağı bilir”. O, ilk dəfə uğur qazandıqda, “Bu demək olar ki, doğrudur” dedi. Daha çox uğur qazandıqdan sonra dedi: “Bu, demək olar ki, kifayətdir”. Və çox uğur qazananda dedi: “Demək olar ki, mükəmməldir.”

*“Konfutsinin söylədikləri”*

Konfutsi həyatının mərhələlərini belə təsvir edir:

“15 yaşım olanda yalnız oxumaqla maraqlanırdım. 30 yaşımda həyatıma başladım; 40 yaşımda artıq özümdən əmin idim; 50

yaşında – şeylərin ümumi nimzamında öz yerimi başa düşdüm; 60 yaşında mübahisə etməməyi öyrəndim; və indi 70 yaşım var və həyatımı məhv etmədən hər şeyi edə bilərəm."

*"Konfutsinin söylədikləri"*

Məhkəmə rəsmisi Konfutsidən cənab Çaonun hər zaman ritual və adətləri yerinə yetirib-yetirmədiyini soruşur və Konfutsi onun bunu etdiyi cavabını verir.

Konfutsi ayrılarkən məmur dedi: "Mənə böyük ustad Konfutsinin müdrik bir adam olduğunu söylədilər, amma görürəm ki, bu belə deyil. Cənab Çao öz qəbiləsindən arvad alaraq adətləri pozub və ona fərqli bir ad verərək gizlədib."

Konfutsiyə bu barədə deyiləndə isə o cavab verdi: "Səhv etsəm, əmin ola bilərsiniz ki, hamı bu barədə eşidəcək".

*"Konfutsinin söylədikləri"*

Ustadın praqmatizminin tipik nümunələri, müdriklik və həyat haqqında məsləhətlər:

"Vicdanda sarsılmaz olun, öyrənməyi sevin, həyatınızla yaxşı Yolu müdafiə etməyə hazır olun. Qeyri-sabit bir ölkəyə daxil olmayın; heç vaxt inqilabın baş verdiyi bir ölkədə yaşamayın. Yol İmperatorluqda hökm sürəndə parlamağa çalışın, hökm sürmədikdə isə gizlənməyə çalışın. Yolun hökm sürdüyü bir ölkədə yoxsul və tanınmaz olmaq ayıbdır. Yolun hökmran olmadığı bir ölkədə isə varlanmaq və hörmət qazanmaq ayıbdır."

*"Konfutsinin söylədikləri"*

Ən yaxın Konfutsi konkret moda nəzəriyyəsi ortaya qoymağa gəlir:

“Alicənab insan tünd qırmızı və ya tünd bənövşəyi yaxalıq taxmamalıdır. Evdə geyindiyi paltar parlaq qırmızı və ya bənövşəyi olmamalıdır. Yaz aylarında evdə olanda yalnız boş, qaba və ya incə ipəkdən düzəldilmiş paltar geyinməlidir. Çölə çıxarkən xarici paltar geyinməlisiniz. Qışda yun astarlı paltarların üstündən qara rəngli paltar geyin. Boyalı paltar geyindikdə, astar maral dərisindən olmalıdır. Sarı paltar geyindikdə, astar tülkü xəzindən olmalıdır. Evdə olarkən, mərasimlərdə geyindiyindən daha uzun toxunmuş paltar geyinməlidir. Əlindən istifadə edə bilməsi üçün geyimin sağ qolu qısa olmalıdır. Yatağa gedərkən bədənin yarısı uzunluqda gecə paltarı geyinməlidir. Ev paltarının astarı tülkü və ya porsuq kürkündən hazırlanmalıdır. Cənazələr istisna olmaqla, kəmərindən asılmış xidmət nişanları həmişə üzərində olmaldır. Qurban mərasimində iştirak etmək istisna olmaqla, geyimi həmişə dəbli və yaxşı hazırlanmış olmalıdır. Yaslı bir insanı ziyarət edərkən heç vaxt keçə və ya qara papaq taxmamalısınız. Ayın ilk günündə alicənab bir insan rəsmi paltar geyinərək öz ustadını ziyarət etməlidir. Oruc tutanda hər zaman təmiz kətan paltar geyinilməlidir.”

*“Konfutsinin söylədikləri”*

Bəzi şərhçilər bu ətraflı təlimatların əslində moda nəzəriyyəsi təşkil edə biləcəyinə inanırlar. Məncə, mücərrəd prinsiplərin olmaması və izah olunmamış qalan müəyyən ziddiyyətli məqamlar səbəbilə bu belə deyil. Məsələn, alicənab bir insan ayın ilk günü şahzadə ilə birlikdə qurban kəsərsə, nə geyinməlidir?

*Bəzi Qərb şərhləri:*

“Konfutsiyə hörmət edirəm. Çünki o, ilahi ilham almayan ilk insan idi.”

*Volter*

“Onun çatdırdığı şey, Çin xalqının ondan əvvəl əsrlər boyu əziz tutduğu dəyərlər idi. Çin Konfutsiçi olmaqdan daha çox, Konfutsiçilik Çindir.”

*Uliyam MakNeyton*

“Konfutsinin etik baxışlarını ifadə etmək üçün bir söz seçməli olsaq, bu söz “humanizm” olardı. Konfutsi etikası insan olmağı öyrətmək üçündür. Mütləq öhdəlik, davamlı özünü təmizləmək və ya inkişaf etdirmək, əxlaqi tərbiyənin daxili planına bütöv bir baxış nəzərdə tutulur.”

*Dr. Tu Wei-Ming, Harvard Universiteti*

*Çin tarixi və fəlsəfəsi professoru*

“Konfutsi, digər filosoflardan daha çox “hökumətin və hökumət aparatının ehtiyaclarına” diqqət yetirirdi”.

*Ezra Paund*

## Əhəmiyyətli fəlsəfi hadisələrin xronologiyası

E.ə. VI əsr – Miletli Fales ilə Qərb fəlsəfəsi başlanır.

E.ə. VI əsrin sonu – Pifaqor ölür.

E.ə. 399 – Sokrat Afinada ölümə məhkum edilir.

E.ə. 387 – Platon Afinada ilk universitet olan Akademiyanı qurur.

E.ə. 335 – Aristotel Afinada Akademiyaya rəqib məktəb olan Likeyumu qurur.

324 – Konstantin Roma imperiyasının paytaxtını Bizantiona (Bizansa) köçürür.

400 – Müqəddəs Avqustin "Etiraflar" əsərini yazır. Fəlsəfə xristian teologiyasına daxil olur.

410 – Vestqotlar tərəfindən Romanın yağmalanması qaranlıq çağların xəbərçisidir.

529 – Afinada Akademiyanın imperator Yustinian tərəfindən bağlanmağı Ellin düşüncəsinin sonuna işarə edir.

XIII əsrin ortaları – Akvinalı Tomas Aristotel haqqında şərhlər yazır. Sxolastisizm dövrü.

1453 – Bizans türklər tərəfindən ələ keçirilir, Bizans imperiyası süqut edir.

1492 – Kolumb Amerikaya çatır. Florensiyada Renessans və yunan dilini öyrənməyə maraq oyanır.

1543 – Kopernik Yerin Günəş ətrafında fırlandığını riyazi olaraq sübut edən "Göy kürələrinin hərəkətləri haqqında" əsərini nəşr etdirir.

1633 – Qalileo Qaliley kilsə tərəfindən Günəş mərkəzli kainat nəzəriyyəsindən əl çəkməyə məcbur edilir.

1641 – Rene Dekart müasir fəlsəfəsinin başlanğıcı olan "Düşüncələr" əsərini nəşr etdirir.

1677 – Spinozanın ölümü onun "Etika" əsərinin nəşrinə imkan verir.

1687 – İsaak Nyuton cazibə anlayışını təqdim etdiyi "Principia" əsərini nəşr etdirir.

1689 – Con Lokkun "İnsanın anlaması haqqında esse" əsəri nəşr edilir. Empirizmin başlanması.

1710 – Corc Berkli "İnsani biliyin prinsipləri haqqında traktat" əsərini nəşr edilir və empirizmi yeni istiqamətlərdə inkişaf etdirir.

1716 – Leibnitsin ölümü.

1739-1740 – Devid Yum "İnsan təbiəti haqqında traktat" adlı əsərini nəşr etdirir və empirizmi onun məntiqi hüdudlarına aparır.

1781 – Yumun "doqmatik yuxularından" oyanan Kant "Saf ağlın tənqidi" əsərini nəşr etdirir. Alman metafizikasının böyük dövrü başlayır.

1807 – Hegel Alman metafizikasının ən yüksək nöqtəsi olan “Ruhun fenomenologiyası” əsərini nəşr etdirir.

1818 – Şopenhauer “Dünya İradə və İstək kimi” əsərini nəşr etdirir və Alman metafizikasını Hind fəlsəfəsi ilə tanış edir.

1889 – Nitsşe “Tanrı öldü!” deyə elan edir və Turində dəliliyə məğlub olur.

1921 – Lüdviq Vitgenştayn “Məntiqi Fəlsəfi Traktat” əsərini nəşr etdirir və fəlsəfi problemlərə “yekun həll” tapdığını iddia edir.

1920-ci illər – Vyana çevrəsi Məntiqi Pozitivizmi önə sürür.

1927 – Martin Haydeqqer kontinental və analitik fəlsəfə arasındakı ayrılığın carçısı olan “Varlıq və Zaman” əsərini nəşr etdirir.

1943 – Jan-Pol Sartr “Varlıq və Heçlik” əsərini nəşr etdirir, Haydeqqerin düşüncələrini daha da inkişaf etdirir və ekzistensializmi təşviq edir.

1953 – Lüdviq Vitgneştaynın ölümündən sonra “Fəlsəfi tədqiqatlar” əsəri nəşr etdirir. Linqvistik analizin yüksəliş dövrü.

## Konfutsi həyatının xronologiyası

E.ə. 551-ci il – Konfutsi dünyaya gəlir (Ehtimal olunur ki, 28 sentyabrda. Bu tarix hələ də Cənub-Şərqi Asiyanın bir hissəsində onun doğum günü kimi qeyd olunur).

E.ə. 548 -ci il – Konfutsinin atası ölür.

E.ə. 536 -ci il – Təhsilə başlayır.

E.ə. 533-cü il – Peya adlı qadınla evlənir.

E.ə. 520-510-cu illər – Konfutsi yeni bir “dini” öyrədən məktəb yaradır.

E.ə. 510-500-cü illər – Lu əyalətinin Daxili İşlər Naziri təyin edilir.

E.ə. 500-cü il – Lu əyalətindəki dövlət xidmətindən təqaüdə çıxır.

E.ə. 500-490-cı illər – Əlavə iş axtarmaq üçün səyahətə çıxır.

E.ə. 484 – Evinə - Lu əyalətinə qayıdır.

E.ə. 479 – 73 yaşında ölür.

## Tövsiyyə olunan ədəbiyyat

Confucius, *The Analects*, trans. by Arthur Waley (Vintage Books, 198).

H. G. Creel, *Confucius and the Chinese Way* (Harper & Row, 1975).

Raymond Stanley Dawson, *Confucius* (Oxford University Press, 1992).

Hans Gerth and Max M, Weber, *The Religion of China: Confucianism and Taoism* (Free Press, 1968)

Tu Wei-ming, ed., *Confucian Ethics Today* ( Federal, 1984).

# POL STRATERN
# 90 DƏQİQƏDƏ KONFUTSİ

Konfutsi həyat haqqında hər şeyi bilir və bizə necə davranmağımızı söyləyirdi. Amma onun nə etdiyini dəqiq öyrənə bilməmişik. Onun xoş niyyətli və qəribə fikirləri, yarı müəmmalı lətifələri ilə bir araya gələrək məmurlar üçün ideal bir fəlsəfə yaratmışdı. Göründüyü kimi Konfutsinin məqsədi şagirdlərini yaxşı dövlət məmurlarına çevirmək idi, lakin təlimi iki min ildən çoxdur ki, davranış qaydaları və mənəvi qida təmin edərək bütün gözləntiləri aşıb.

Pol Stratern "90 dəqiqədə Konfutsi" əsərində Konfutsinin həyatı və fikirləri haqqında qısa və akademik bir hesabat təqdim edir və bu bilgilərin insanın dünyadakı mövcudluğunu anlamaq üçün apardığı mübarizəyə təsirlərini izah edir.

Kitaba Konfutsinin yazılarından seçmələr, daha da irəli getmək istəyənlər üçün təklif olunan qısa oxuma siyahısı və Konfutsini öz dövrünə və daha geniş fəlsəfə nizamına yerləşdirən xronologiyalar daxildir.



Pol Stratern (1940- ) Şotland-İrland əsilli yazıçı

Dublin Trinity kollecində fəlsəfə təhsil alıb. Kinqston universitetində riyaziyyat, elm və fəlsəfə üzrə mühazirələr oxuyub. "90 dəqiqədə filosoflar", "Böyük düşüncə: Dünyanı dəyişdirən elm adamları" kimi qısa kitab seriyalarının müəllifidir. Romanları ilə yanaşı səfər təəsüratları, elm, fəlsəfə, tarix, ədəbiyyat, tibb və iqtisadiyyat mövzulu çoxsaylı kitabların da müəllifidir.